www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 dekabr 2018-ci il Çərşənbə axşamı № 271 (7160) Qiyməti 60 qəpik

**Xəbər**

## Rusiyada 17 yaşlı azərbaycanlı qız amansızlıqla öldürüldü

yazısı səh.2-də

# AZƏRBAYCANA 4 PAYTAXTDAN MÜHÜM DƏSTƏK - İRƏVAN TƏKLƏNİR

"Rus NATO-su" ətrafında "sular" durulur; Paşinyan "Bakının adamı"na səs verməli olacaq; Rusiya Bakıya silahları daxili bazar qiymətinə satacaq - təhlükəsizlik ekspertindən ilginc açıqlama



yazısı səh.8-də

**Gündəm**

### Hacı Qalib imarətinə gülləkeçirməz şüşələr alıb - sensasion gəlişmə



Sabiq deputat istintaqda əmlakı dağıdılan zərərçəkənlə üzləşdi

yazısı səh.4-də

### Əhalinin narazı olduğu icra başçıları vəzifədən azad edilir

yazısı səh.7-də

### Nazir "Aqrar tədarük və təchizat" ASC-nin fəaliyyət prinsiplərini açıqladı

yazısı səh.3-də

### Müxalifətin zirvə görüşündə üç aparıcı partiya iştirak etməyə bilər

yazısı səh.7-də

### ABŞ Güləni Türkiyəyə verəcəkmi....

yazısı səh.10-da

### Cangüdənlə gəzən müxalif partiya liderləri

yazısı səh.7-də

### Gürcüstanda vəziyyət gərginləşir- yeni prezidentin başı dərddə...

yazısı səh.10-da

### Qarabağla bağlı gələn ilə bir nikbin, bir bədbin proqnoz

yazısı səh.12-də

### DYP-dən xəbərdarlıq - təhlükəli yük daşıyanlar sərt cəzalanacaq

yazısı səh.14-də

### Qanunsuz ov edənlərə qarşı sərt tədbirlər görülür

yazısı səh.15-də

### Qar yağacaq, yollar buz bağlayacaq

yazısı səh.14-də

### 18 yaşlı gənc məktəbin önündə 43 yaşlı kişini ürəyindən vurdu

yazısı səh.14-də

## Şəhidlərimizin hədəfə götürülməsi xain bir layihədir - heyrətamiz iddialar

Şəhidimiz Mübariz İbrahimova qarşı iyrənc iddialar Qərb və Avropadakı ermənipərəst mərkəzlərdə hazırlanmış plandır; dövlətimizi güclü görmək istəməyən qüvvələrin beynini yuduğu azərbaycanlı gənclərin hüquq-mühafizə orqanları tərəfindən nəzarətə alınmasına zərurət var...

yazısı səh.5-də



*Zahid Oruc:*

### "Bakı ABŞ səfirinin kimliyindən narahat deyil"

yazısı səh.9-da



### "Hacı Mazan"ın işdən çıxarılan oğlunun 300 minlik maşınları

yazısı səh.4-də



*Əli Həsənov:*

### "Onlar qanun qarşısında cavab verməlidirlər"

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

# "Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir"

## Prezident hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak etdi

**Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov prezident İlham Əliyevə raport veriblər.

Dövlətimizin başçısı mənzillərdə yaradılan şəraitlə tanış olub.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

**Prezident deyib ki, Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir:** "Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər. Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir".





**Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim edib.**

## Mingəçevirə yeni icra başçısı təyin edildi

**Prezident İlham Əliyev İlham İsmayılovun Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, İlham Mehdixan oğlu İsmayılov Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

## Bakıda maşın piyadalara çırpıldı

**Paytaxtın Nərimanov rayonunda dörd piyadanın vurulması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib.**

Oxu.az-ın məlumatına görə, Ağa Nemətulla küçəsində "Hyundai" markalı 90 AV 316 dövlət nömrə nişanlı avtomobil dörd piyadanı vurub, daha sonra "BMW" markalı 10 MO 201 dövlət nömrə nişanlı avtomobilə çırpılıb.

Hadisə nəticəsində ikisi qadın, ikisi kişi olmaqla, dörd nəfər piyada ağır xəsarətlər alıb. Onlar təcili olaraq 5 nömrəli xəstəxanaya çatdırılıblar.

Hadisə şahidlərinin sözlərinə görə, qəza nəticəsində xəsarət alan oğlanlardan biri ərazidə fəaliyyət göstərən marketlərdə çalışırmış. Onun lal olduğu deyilir.

Faktla bağlı araşdırma aparılır.

## Əhalinin sayı 9967730 nəfərə çatıb

**Azərbaycanda demoqrafik vəziyyət açıqlanıb. Dövlət Statistika Komitəsindən "Report"a verilən məlumata görə, ilin əvvəlindən ölkə əhalisinin sayı 69645 nəfər artaraq 2018-ci il noyabr ayının 1-i vəziyyətinə 9967730 nəfərə çatıb.**

Əhalinin bir kvadrat kilometrə düşən sayı 115 nəfər olub.

Əhalinin ümumi sayından 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.



## Macarıstandakı diasporumuzun sədri Fuad Muradovla görüşdü

**Dekabrın 15-də Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Qardaşlıq" Macar- Azəri Birgə Cəmiyyətinin və Macarıstanda Azərbaycan Diasporunun sədri Ramiz Əmirlini qəbul edib.**

Bu barədə müsavat.com-a R.Əmirlinin özü məlumat verib. O bildirib ki, görüş zamanı gələcəkdə Macarıstanda, eləcə də Şərqi Avropa ölkələrində diasporumuzda baş verəcək müsbətyönlü dəyişikliklər müzakirə edilib. R.Əmirli görüşdə Macarıstanda yaşayan azərbaycanlılarla daha yaxından ünsiyyət qurmağın yolları və dövlətimizin diaspor qarşısında qoyduğu məqsədlərin ən əsas fikir mübadiləsi olduğunu da söyləyib.

❑ **Cavanşir ABBASLI**
**Musavat.com**

## "Azərbaycandan Avropa Məhkəməsinə şikayətlərin sayı azalır" - Çingiz Əsgərov

**Azərbaycandan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə edilən şikayətlərin sayında azalma müşahidə edilir. «Trend»in məlumatına görə, bunu Azərbaycanın İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında daimi nümayəndəsi, Azərbaycan Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərov deyib.**

O qeyd edib ki, Azərbaycan Avropa Məhkəməsində öz maraqlarını, mövqeyini lazımi qaydada müdafiə edir.

Ç.Əsgərov əlavə edib ki, Avropa Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının icrasında hər şey qaydasındadır. Onun sözlərinə görə, bununla bağlı həm fərdi, həm də ümumi xarakterli tədbirlər həyata keçirilir.

## Qanunsuz ov əti alan restoranlar cəzalandırılacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi qanunsuz ov ətlərinin qəbulu ilə bağlı restoranlara ciddi xəbərdarlıq edib. Bunu özəl olaraq «Trend»ə Nazirliyin Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı Departamentinin direktoru Hikmət Əlizadə deyib.**




Departament rəhbəri bildirib ki, ölkə ərazisində qanunsuz ov edilməsi sonda həmin heyvanın ətinin hansısa restoranlara satılması ilə nəticələnir: "Çünki bu gün Azərbaycanda əhalinin sosial rifahı o qədər aşağı deyil ki, kimsə həyatını təmin etmək üçün qadağan olunmuş heyvanları ovlasın. Əksər hallarda "Qırmızı kitab"a düşən nadir heyvanları ona görə ovlayırlar ki, restoranlara təhvil versinlər. Buna görə də biz artıq restoranlara xəbərdarlıq edirik və onları ov heyvanlarının ətlərini almamağa çağırırıq. Dünən biz maralın qanunsuz ovlanması ilə bağlı məlumat yaymışdıq. Bununla bağlı hüquq-mühafizə orqanlarına da məlumat vermişik və artıq şübhəli şəxslər də müəyyən edilib, onların saxlanılması ilə bağlı tədbirlər görülür. Həmin şəxslər azadlıqdan məhrum ediləcək və ya külli miqdarda cərimə ediləcək. Qanunvericiliyə görə, həmin şəxsləri 2 il müddətinə həbs gözləyir. Kiçik bir gəlirə görə həmin şəxslər həbs ediləcək".

**H.Əlizadə deyib ki, bu cür hallar həmçinin restoran müştərilərinin də həyatını təhlükəyə atır:** "Çünki həmin ov heyvanları baytar nəzarətindən keçirilmədən restoranlara verilir. Həmin heyvanlarda müxtəlif xəstəliklər ola bilər və o ətlər yoxlanılmadan müştərilərə verilir. Bu da insanların həyatını risk qarşısında qoyur. Çünki təbiətdə olan heyvan hansısa bir xəstəliyin daşıyıcısı ola bilər".

**Departament rəhbəri bildirib ki, Ekologiya və Təbii Sərvərlər Nazirliyi bu cür halların qarşısını almaq üçün bütün lazımi tədbirləri həyata keçirəcək ki, həmin restoranlar bu cür ov ətlərini almasın:** "Bu prosesdə ən yüksək cərimələr tətbiq ediləcək və hətta ov əti alan restoranların fəaliyyətinin şübhə altına alınması ilə bağlı tədbirlər görüləcək. Eyni zamanda həmin restoranlar və qanunsuz ov edənlər ictimaiyyət üçün böyük bir qınaq obyektinə çevriləcək. Bunun üçün kütləvi informasiya vasitələrinin də köməyinə ehtiyacımız var. Ola bilər ki, ov əti verən restoranlarda monitorinqlər də keçirilsin".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Rusiyada 17 yaşlı azərbaycanlı qız amansızlıqla öldürüldü

**Rusiyada azərbaycanlı qız amansızlıqla qətlə yetirilib. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, İrkutsk vilayətinin Nijneudinsk şəhərində yaşayan 17 yaşlı Günel Rəhim qızı Dadaşova 10 gün əvvəl itkin düşüb.**

Onun cəsədi ötən gün Nijneudinsk şəhərindəki körpülərdən birinin altında, zibilliyin yanında aşkar olunub. İstintaq materiallarına görə, Dadaşovanın boğazı kəsilib.

Faktla bağlı 15 və 17 yaşlı yeniyetmələr şübhəli qismində saxlanılıblar. Onlar ifadələrində qətli tamah məqsədi ilə törətdiklərini etiraf ediblər.

Yeni MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

**Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin müdiri, ölkə prezidentinin köməkçisi Əli Həsənov özünün facebook səhifəsində məqalə ilə çıxış edib.**

# "Onlar qanun qarşısında cavab verməlidirlər"

## Əli Həsənov: "Bu tipli mübarizə nə mənim rəsmi statusuma, nə mənəvi-əxlaqi keyfiyyətlərimə, nə psixi-əqli durumuma uyğun deyil"

**Musavat.com həmin məqaləni təqdim edir:**

- Azərbaycan ictimaiyyəti zaman-zaman müxalifətin və ya xarici ölkələrə üz tutub anti-Azərbaycan qüvvələrin nəzarəti altında öz dövlətinə qarşı mübarizə aparan ünsürlərin heç bir reallığa uyğun gəlməyən iddialarına artıq adət edib və tam səmimi demək olar ki, artıq buna əhəmiyyət də vermir.

Lakin düşünürəm ki, bəzi hallarda onlara kim olduqlarını, əsl yerlərini göstərmək lazımdır ki, ictimai rəyi çaşdıra və cəmiyyətimizin ab-havasını dəyişə biləcəklərinə qətiyyən ümidli olmasınlar.



Tam məsuliyyətimlə bildirirəm ki, özünü "hüquq müdafiəçisi" adlandıran və hər açıqlaması ilə mənəvi-əxlaqi durumunun son dərəcədə acınacaqlı olduğunu nümayiş etdirən Vidadi İsgəndərlinin atasının məzarının təhqir olunması ilə bağlı baş vermiş hadisəni hakimiyyətlə və şəxsən mənimlə bağlamaq cəhdləri növbəti ucuz şoudur. Kiminsə təhqir olunması mənim nə rəsmi statusuma, nə əxlaqıma və mənəviyyatıma, nə psixi-əqli durumuma, nə də ki, hansısa formada ictimai maraqlarıma uyğun deyil. Şübhəsiz, bu şayiələr müəyyən maraqlar çərçivəsində və məqsədyönlü şəkildə yayılır.

Məqsəd, bir tərəfdən təmsil olunduğum hakimiyyəti belə çirkin olaylarla ələqələndirmək, digər tərəfdən isə iqtidarın ideoloji-siyasi və mənəvi-əxlaqi siyasətinin həyata keçirilməsində birbaşa iştirak edən aparıcı məmur kimi şəxsən məni hörmət və nüfuzdan salmaqdır. Çünki mənim nüfuzum və cəmiyyətdəki reputasiyam mövcud iqtidarın informasiya siyasətinin və təbliğatının ictimai yükünə və effektivliyinə birbaşa təsir göstərir.

Ancaq son faktı əsas götürərək diqqət etmək lazımdır ki, bu iddiaları irəli sürənlər kimlərdir və məqsədləri nədir?! Azər Kazımzadə adlı şəxs xarici ölkələrdə fəaliyyət göstərən və etnik separatizm toxumu səpməyə çalışaraq Azərbaycan dövlətçiliyinə və milli birliyimizə həmişə sədaqət nümayiş etdirmiş talış xalqını çaşdırmaq istəyən Əlikram Hümbətov, İsmayıl Şabanov, Fəxrəddin Abbaszadələrin dəyirmanına su tökənlərdən biridir. Onun və digər bu kimi ünsürlərin milli hisslərini, mənəvi-əxlaqi keyfiyyətlərini tam itirdiyinə heç bir şübhəm yoxdur. İşğalçı Ermənistanın xüsusi xidmət orqanları ilə birbaşa işləyən və külli miqdarda vəsait alan, dövlətimizə qarşı açıq düşmənçilik edənlərlə bir sırada duran ünsürlərə və yaxud xaricdə oturub guya Azərbaycanda demokratiya uğrunda "mübarizə apardıqlarını" iddia edən qrant dəllallarına Azərbaycan cəmiyyətinin münasibəti barədə yazmağı isə artıq hesab edirəm.

Mən heç vaxt onların iddialarına, mənə qarşı irəli sürdükləri barmaqdansorma ittihamlarına onların əxlaqına uyğun formada cavab verməmişəm və bundan sonra da belə bir fikrim yoxdur. Həmişə hesab etmişəm ki, siyasətdə qeyri-etik davranış, mənəviyyatdan kənar ifadələr, yalan, təhqir, şantaj heç kimə, o cümlədən mənim siyasi silahdaşlarıma heç bir xeyir gətirməz. Bu yolu tutanlar heç vaxt cəmiyyət qarşısında hörmət qazana və ictimai rəyə təsir göstərə bilməzlər. Onların etdikləri isə yalnız xarici anti-Azərbaycan qüvvələrin pullarını yumaq, üzərlərinə götürdükləri çirkli öhdəlikləri yerinə yetirməkdir və bu artıq heç kimə sirr deyil.

Buna görə də əminəm ki, xarici ölkələrdə gizlənərək mənim xalqıma, dövlətimə, ölkə başçısına və onun ailəsinə, məmur və ziyalılarımıza, tanınmış ictimaiyyət nümayəndələrinə qarşı çirkab yağdıran Qurban Məmmədov, Elşad Abdullayev, İsa Sadıqov, Azər Kazımzadə, Orduxan Temirxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli və digər bu kimiləri qanun qarşısında cavab verməlidirlər.

# Nazir "Aqrar tədarük və təchizat" ASC-nin fəaliyyət prinsiplərini açıqladı

## Prezidentin fərmanı ilə yaradılan yeni qurumdan gözləntilər böyükdür

**Prezidentin bir neçə gün əvvəl imzaladığı fərmanla Azərbaycanda "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. ASC Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərəcək.**

Prezidentin həmin fərmanı ilə "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC ləğv olunur, onun bütün əmlakı yeni yaradılan qurumun balansına verilir.

Sənədə əsasən yeni ASC dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçılardan və satıcılardan mərkəzləşdirilmiş qaydada satın alınmasını və ixracını, habelə tədarük edilərək satınalan təşkilatların müraciətləri əsasında onlara təqdim edilməsini həyata keçirən, eləcə də qeyd olunan istiqamətlərdə fəaliyyətin təşkili ilə bağlı digər tədbirlər görülməsini təmin edən kommersiya hüquqi şəxsdir.




Xatırladaq ki, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC prezidentin 2016-cı ilin aprelində imzaladığı fərmanla yaradılmışdı. Məqsəd dövlət qurumlarının ərzaq tələbatının mərkəzləşmiş qaydada yerli məhsullar hesabına təmin olunması idi. ASC-dən verilən məlumatlarda qurumun bazarda dövlət ehtiyat ərzaq fondları yaradacağı qeyd olunurdu. Belə fondların süni qiymət artımının qarşısını almağa imkan verəcəyi nəzərdə tutulurdu. Yəni əgər süni qiymət artımı baş verərsə, ASC buna reaksiya verərək bazara məhsul intervensiyası edilməsi yolu ilə süni qiymət artımının qarşısını almalı idi. Lakin ötən müddət ərzində qurum tərəfindən bazara belə bir intervensiyanın edilməsinə dair məlumat yoxdur. Amma əldə etdiyimiz məlumata görə, ASC mütəxəssisləri tərəfindən bazara intervensiya mexanizmini müəyyənləşdirən qaydalar hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunub. Həmin qaydalarda hansı hallarda, hansı qiymətlər şəraitində bazara intervensiyanın edilməsi mexanizmləri əksini tapacaq. NK-nın yaxın vaxtlarda qaydaları təsdiqləyəcəyi gözlənilir.

Qeyd edək ki, əksər ölkələrdə əsas tələbat mallarının qiyməti həssaslığına görə dövlət tərəfindən daim diqqətdə saxlanılır. Avropa ölkələrinin bir çoxunun qanunvericiliyində dövlətin əhalini bahalaşmalardan qoruyan tədbirlər nəzərdə tutulur. Belə tədbirlər əksər MDB ölkələrində də var. Məsələn, Rusiya və Qazaxıstanda pərakəndə ticarət fəaliyyətini tənzimləyən qanunlarda 1 ay ərzində sosial əhəmiyyətli məhsulların qiymətində artım 25-30 faizi keçdikdə dövlətə həmin məhsul üzrə 90 günlük qiymət maksimumu müəyyənləşdirmək səlahiyyəti nəzərdə tutulur.

Belarus qanunvericiliyində dövlətin bazara 2 cür müdaxiləsi nəzərdə tutulur: alış və satış. Alış o zaman həyata keçirilir ki, hansısa məhsulun bazar qiyməti yerli istehsalçıların xərclərini qarşılayacaq səviyyədən aşağı düşsün. Bu zaman Belarus Nazirlər Şurası həmin məhsulun tələbdən artıq hissəsini alaraq yerli istehsalçıları qoruyur. Satış intervensiyası isə 2 halda həyata keçirilir: hər hansı əsas tələbat malının qıtlığı yarandıqda, ikincisi isə hansısa məhsulun qiymətində kəskin bahalaşma olduqda.

Dövlət adından çıxış edən qurumun bazara intervensiyası qonşu Türkiyədə də geniş tətbiq olunur. Məsələn, 2017-ci ildə Türkiyədə böyük həcmdə fındıq istehsalına nail olunmuşdu. Həm bolluq, həm də dünya bazarında qiymətin aşağı olması səbəbindən istehsalçıların zərərlə üzləşməsi təhlükəsi yaranmışdı. Onda Türkiyə hökuməti məhsulu orta qiymətlə istehsalçılardan alaraq, onların zərərə düşməsinin qarşısını aldı. Son illərin təcrübəsi göstərir ki, Azərbaycanda da belə praktikanın tətbiq olunmasına ciddi ehtiyac var. Bu il sarımsaq və kartof istehsalçılarının üzləşdiyi vəziyyət hamıya məlumdur. Həmin məhsulların idxalının əlavə rüsuma cəlb olunması kartof istehsalçıları üçün əlverişli şərait yaratsa da, sarımsaq istehsalçılarının vəziyyətində ciddi dəyişikliyə səbəb olmadı. Bu baxımdan, yeni yaradılan "Aqrar tədarük və təchizat" ASC-nin fəaliyyəti maraq doğurur. Qurumun KTN-in tabeliyində fəaliyyət göstərməsi hansı məhsul üzrə intervensiyanın həyata keçirilməsi ilə bağlı vaxtında və operativ qərarların qəbuluna imkan verəcək.

**Kənd təsərrüfatı naziri İnam Kərimov yeni ASC-nin yaradılmasını qısa da olsa şərh edib. Bildirib ki, bu ASC-nin yaradılması ölkə prezidentinin yürütdüyü aqrar siyasətin tərkib hissəsidir və ölkədə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdıracaq, dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınmasının sistemliliyini təmin edəcək:** "Cənab prezidentin qarşımıza qoyduğu vəzifələrin icrası üçün fəaliyyətimizdə dörd əsas prinsipə əsaslanacağıq:

**a)** *aşağı qiymət və dövlət vəsaitinə qənaət etmək;*

**b)** *keyfiyyətli məhsul istehsalı və təhlükəsiz qida ilə təminat;*

**c)** *ədalətli rəqabət və yerli məhsul istehsalına dəstək;*

**d)** *çevik və şəffaf idarəetmənin təşkili.*

Məqsədlərimizə nail olmaq üçün aqrar tədarük və təchizat sahəsində müasir texnologiyalardan istifadə edəcəyik. Eyni zamanda yaradılmaqda olan elektron kənd təsərrüfatı informasiya sisteminin imkanlarından yararlanacağıq".

"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsinin icrası Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Aqil Quliyevə tapşırılıb.

Bu barədə "Trend"ə nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdir müavini Vüqar Hüseynov açıqlama verib.

**❑ DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 271(7160) 18 dekabr 2018

# Hacı Qalib imarətinə güllləkeçirməz şüşələr alıb - sensasion gəlişmə

## Sabiq deputat istintaqda əmlakı dağıdılan zərərçəkənlə üzləşdi

**Daxili İşlər Nazirliyi (DİN) İstintaq İdarəsinin Ağır Cinayətlərin İstintaqı İdarəsində sabiq deputat Hacı Qalib Salahzadənin adı keçən araşdırma davam edir. İstintaq hərəkətləri zərərçəkənlərin Qalib Salahzadə ilə üzləşməsi ilə keçirilir.**



Son belə üzləşmə sabiq deputatla Bilgəh qəsəbəsində 2 və 3 mərtəbəli evləri dağıdılan, həyətdəki yardımçı binalar, hovuz, su quyusu, ağacları yerlə bir edilən Ələkbər Quliyev arasında olub. Bu haqda "Yeni Müsavat"a Ə.Quliyevin qardaşı Seymur Quliyev məlumat verib.

**Deyib ki, Qalib Salahzadə onların Bilgəhdəki mülkünü ələ keçirmək üçün 2011-ci ildən ən müxtəlif saxtakarlıqlara gedib, bunun üçün dövlət qurumlarını, Bilgəh bələdiyyəsini də öz saxtakarlıqlarına şərik qoşub:** "2011-ci ilin sonunda Bilgəh bələdiyyəsi Qalib Salahzadənin qardaşı arvadı Rəhilə Salahzadəyə mənim torpağıma aid sənəd vermişdi. Həmin sənəd əsasında da Rəhilə Salahzadənin adından Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsinə şikayət yazmışdı. Rəhilə Salahzadənin adından yazılmışdı ki, guya mən 3 nəfərlə onun həyətinə silahlı basqın etmişəm. Şikayətinə saxta bələdiyyə sənədini də əlavə etmişdi. Polis araşdırdı, məlum odu ki, şikayət cəfəngiyyatdır. Həmin sənədlə bağlı Sabunçu Rayon Məhkəməsinə müraciət etdik. Bilgəh bələdiyyəsinin hüquqşünası məhkəmədə gəlib dedi ki, guya sənədi səhv veriblər. Əslində isə məhkəmədə üzə çıxdı ki, sənəd saxtadır. Amma həmin saxta sənədlə bağlı bu günə qədər hər hansı bir araşdırma aparılmayıb. 8 ildir ki, Rəhilə Salahzadəni də ortaya çıxara bilmirlər ki, ondan saxta sənədləri haradan almasını soruşsunlar. Açıq-aşkar cinayət ortadadır. 8 ildir ki, sənədin saxtalığı ilə bağlı tədbir görülmür. Ona görə də Qalib Salahzadə bizə qarşı qanunsuzluqlarını davam etdirir".

**Seymur Quliyev deyir ki, saxta bələdiyyə sənədi ilə bağlı Sabunçu Rayon Məhkəməsində araşdırmalar davam etdirilən günlərdə Bilgəh bələdiyyəsinin hüquqşünası əraziyə Bakı Şəhər İcra Hakimiyyətinin sərəncam verdiyini söyləyib:** "Həmin sərəncamla bağlı Bakı Şəhər İcra Hakimiyyətində olduq. O dövrdə Hacıbala Abutalıbov bizi qəbul etmədi. 2 saylı İnzibati İqtisad Məhkəməsinə qanunsuz verilən sərəncamın ləğvi ilə bağlı müraciət etdik. Hacıbala Abutalıbov bizim torpağı 2 hektar yarım torpağın içində "İnşaatservis"ə vermişdi. Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Əmlak Komitəsi nümayəndələri məhkəməyə gəlib dedilər ki, torpaq Seymur Quliyev və Nurid Əliyevindir. Bakı Şəhər İcra Hakimiyyətinin Cəlal adlı nümayəndəsi də gəlib məhkəmədə dedi ki, biz bilməmişik ki, orada əmlak var, ona görə də elə bir sərəncam verilib. "İnşaatservis"in də nümayəndələri yazıb verdilər ki, onlara ayrılan torpağın içində olan digər şəxslərə məxsus torpaqdan imtina edirlər, həmin hissədə sərəncamın ləğvinə etiraz etmirlər. 2 saylı İqtisad Məhkəməsi 2013-cü ilin yayında BŞİH-dən verilən sərəncamı da ləğv elədi. Bundan sonra ortaya Xatirə Salahzadə çıxdı. Qalib Salahzadənin gəlini şikayətvermə müddəti bitəndən 1 ay sonra məhkəmə qərarından şikayət vermişdi. Yazırdı ki, torpaq guya onundur, məhkəməyə 3-cü şəxs qismində qoşulur və qərarın ləğv olunmasını istəyirdi. Bu günə qədər də bəlli deyil ki, həmin qərardan şikayət vermə müddətini Xatirə Salahzadə kimlərin əli ilə bərpa etdirib. Məhkəmə başladı, Xatirə Salahzadənin və Bilgəh bələdiyyəsinin nümayəndəsi eyni adam idi. Prosesə əlində daşınmaz əmlakdan çıxarışla gəlmişdi. Bakı Apelyasiya Məhkəməsində araşdırma başladı. Bu dəfə BŞİH-in həmin o Cəlal adlı nümayəndəsi ötən məhkəmə instansiyasında səhv verdiklərini söylədiyi sərəncamı müdafiə etməyə başladı. Hakimin "Əgər sərəncam doğru-dürüst verilmişdisə, niyə BŞİH məhkəmə qərarından apelyasiya şikayəti vermirdi" sualından sonra susdu, daha danışmadı. Daşınmaz Əmlakın nümayəndəsini də məcburi qaydada prosesə gətirdilər. Çünki ilkin instansiyada onların üzərinə həmin sərəncamın verilməsi öhdəliyi qoyulmuşdu, bunlar isə Xatirə Salahzadənin adına çıxarış vermişdilər. Bakı Apelyasiya Məhkəməsi Xatirə Salahzadənin şikayətini rədd elədi. Ali Məhkəmə, Konstitusiya Məhkəməsinə qədər şikayət verdilər, yenə də rədd cavabı aldılar. Əgər həmin saxta sənədlər Hacı Qalibin əlində olmasaydı, o, mənim, qardaşımın, qonşumun mülklərini, həyətlərimizi heç vaxt sökə, oranı özünə məxsus restorana dayanacaq edə bilməzdi. Bu adam özünün mənə qarşı cinayətlərinə dövlət qurumlarını da qatıb. Özü də bunu cibində Milli Məclis kimi mötəbər bir dövlət qurumunun vəsiqəsini gəzdirdiyi günlərdə eləyib. Göründə ki, məhkəmələrdə onun saxta sənədlərlə torpağımızı ələ keçirmək istəyi alınmır, götürüb 35 nəfərin və mənimlə Nurid Əliyevin evinə gedən yolu bağlayıb. Bu gün də Bakı Şəhər İcra Hakimiyyəti dövlətin yolunu açmaqda aciz qalıb".

**Seymur Quliyev deyir ki, 8 aydır Qalib Salahzadənin ona və qonşusuna qarşı etdiyi cinayətin istintaqı gedir:** "Əlimdə adıma mülkiyyətimi təsdiq edən sənəd ola-ola dövlət qurumları Qalib Salahzadənin qardaşı arvadı Rəhilə Salahzadəyə, oğlunun arvadı Xatirə Salahzadəyə necə sənəd veriblər? Axı bu necə mümkündür? Niyə bu saxtakarlıqlarla bağlı cinayət işi açılmır? Hacıbala Abutalıbov niyə istintaqdan kənar qalır? Bilgəh bələdiyyəsi, daşınmaz əmlak necə veriblər həmin sənədləri?

Hacı Qalib istintaqda özünü elə aparır ki, guya günahsızdır. Qardaşım Ələkbər Quliyevlə üzləşdiriləndə danışır ki, Bilgəhdəki 7 mərtəbəli imarətinə 3-4 milyon avro xərcləyib təkcə pəncərə alıb. İmarətin pəncərələri güllləkeçirməzdir. Almaniyadan mütəxəssislər dəvət edib və həmin pəncərələrin montaj işlərini görüblər. Bu adam kimdir ki, evinə güllləkeçirməz pəncərə qoydurur? Qardaşım da ona deyib ki, ondansa get yolu aç. Bizə vurduğun ziyanı ödə. Bizim əmlakımızı 2012-ci ilin martında audit şirkəti 2 milyon yarım manat ancaq tikili kompleksinə qiymət qoymuşdu. Orada bizim 20 sot torpağımızın üzərində 2 mülkdən başqa hovuz, su quyusu, çoxlu ağaclarımız, yardımçı tikililərimiz vardı".

Qeyd edək ki, Baş Prokurorluq Hacı Qalib Salahzadənin qanunsuz olaraq bağladığı yolun açılması üçün bu il oktyabrın 15-də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova məktub ünvanlayıb. Məktubda Bilgəh qəsəbəsi, Aslan Salahzadə küçəsi döngə 21, ev 2, ev 1 ünvanlarına və dəniz çimərliyinə gedən yolun açılmasının təmin edilməsi tələbi qoyulub. Yolun açılması ilə bağlı işlərin icra müddəti 1 ay olsa da, hələ ki yol bağlıdır. Bilgəh qəsəbə sakinləri Seymur Quliyev, Nurid Əliyev və 35 vətəndaş yoldan istifadə edə bilmirlər. Hazırda fakt üzrə Cinayət Məcəlləsinin 186-cı - əmlakı qəsdən məhv etmə və ya zədələmə və 188-ci - torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma maddələri ilə cinayət işi davam etdirilir. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, iş üzrə Cinayət Məcəlləsinin 259-cu - qanunsuz ağac kəsmə və 320-ci - rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə maddələri ilə də araşdırma davam edir.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**



## "Hacı Mazan"ın işdən çıxarılan oğlunun 300 minlik maşınları

### Ramazan Zeynalov: "İşdən çıxarılıb, amma cinayət işi..."

**Son zamanlar adı ən müxtəlif qalmaqallarda hallanan Hacı Ramazan Zeynalovun oğlu işdən çıxarılıb. İctimaiyyət arasında "Hacı Mazan" kimi tanınan Ramazan Zeynalovun oğlu Bayram Zeynalov Sumqayıt Şəhər Dövlət Yol Polisi Şöbəsinin rəisi vəzifəsini tuturdu. Belə xəbərlər var ki, Bayram Zeynalovla bağlı qərarın verilməsi onun vəzifə səlahiyyətlərini aşması ilə əlaqədar olub. DİN-ə onun fəaliyyəti ilə bağlı çoxsaylı şikayətlər göndərilib və nəticədə belə bir qərar verilib.**



"Hacı Mazan" oğlu Bayram Zeynalovun Sumqayıt Şəhər Dövlət Yol Polisi Şöbəsinin rəisi vəzifəsindən azad edildiyini təsdiqləyib. Ramazan Zeynalov bakupost.az-a açıqlamasında daxili işlər naziri Ramil Usubovun əmri ilə oğlunun işdən azad edilməsində qəribə heç nə olmadığını bildirib. İş adamı vəzifəsindən azad edilən B. Zeynalov barədə cinayət işi açıldığı barədə xəbərləri isə təkzib edib: "Elə bir şey yoxdur. Cinayət işi açılsa da, bunu cənab nazir, dövlət bilər". Hazırda şəkər xəstəliyindən müalicə olunduğunu söyləyən Hacı Mazan mətbuatla təmasdan uzaq durmağa çalışdığını da vurğulayıb.

Qeyd edək ki, Ramazan Zeynalov, onun oğlu və yaxınları 444 seriyalı dövlət nişanlı nəqliyyat vasitələrini idarə etməklə də ad çıxarıblar. Bayram Zeynalov işdən çıxarılandan və barəsində təhqiqat işinin aparılması xəbərləri yayılandan sonra sosial şəbəkələrdə ona məxsus olduğu bildirilən 2 avtomobilin - "Mercedes Galenvagen" və "Porsche Panamera"nın fotoları yayılıb. Həmin nəqliyyat vasitələrinin də fotolarını yaymaqla hər birinin qiymətinin 150 min manatı aşdığını da diqqətə çatdırırıq. Qeyd edək ki, hazırda "Hacı Mazan" barəsində də cinayət işi var. O, "Xəzər" televiziyasının əməkdaşlarına qarşı zorakılıq edib, onlara xəsarət yetirib. Bununla bağlı araşdırma aparılır.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

**Şəhidimiz, Milli Qəhrəmanımız Mübariz İbrahimov haqqında bir gəncin xoşagəlməz ifadələr səsləndirməsi günlərdir sosial şəbəkələrdə, media orqanlarında müzakirə olunur. Cəmiyyətin bütün təbəqələrindən bu hədyanları səsləndirən, özünü psixoloq adlandıran Nərmin Şahmarzadə adlı birisinə (hansı ki, heç psixoloq da deyil, hələ bu sahə üzrə təhsil alır. Onunla qısa ünsiyyətdə olmuş əməkdaşımızın rəyi isə bu oldu ki, ondan heç zaman psixoloq yetişməyəcək, çünki aqressiv, danışıq tərzini bilməyən, özünü idarə edə bilməyən, adekvat olmayan adamdır-E.M.) ciddi təpki var.**




# Şəhidlərimizin hədəfə götürülməsi xain bir layihədir - heyrətamiz iddialar

## Şəhidimiz Mübariz İbrahimova qarşı iyrənc iddialar Qərb və Avropadakı erməniprəst mərkəzlərdə hazırlanmış plandır; dövlətimizi güclü görmək istəməyən qüvvələrin beynini yuduğu azərbaycanlı gənclərin hüquq-mühafizə orqanları tərəfindən nəzarətə alınmasına zərurət var...

Öncə bu məqama diqqət yetirək; Azərbaycan cəmiyyəti bu məsələdə olduqca sərt mövqe ortaya qoydu. Nə qədər çağırışlar olsa da ki, elə bir bədəmələ reaksiya verib, onu "məşhurlaşdırmaq" gərəkli deyil, insanlar fikirlərini bildirdilər. "Hər bir pis işdə bir xeyir də var" prizmasından yanaşsaq, bir daha hər kəs gördü ki, Azərbaycanda Qarabağ, şəhidlərlə münasibət məsələsində vəhdət var, iqtidarlı-müxalifətli hər kəs bu məsələdə eyni fikri bölüşür.

Amma heç şübhəsiz ki, daha bir neçə kosmopolit gəncdən çatlaq səslər də gəldi. Çox maraqlıdır ki, onlar özlərini daha çox "demokratik düşərgə" təmsilçisi kimi qələmə veriblər, bəzən müxalif mövqeləri ilə seçiliblər. Əlbəttə, bu kimi məsələlər təsadüfi deyil və cəbhədə hansısa bir münaqişə baş vermədiyi, yaxud atəşkəs pozulmadığı bir vaxtda bir gəncin ortaya çıxıb, Azərbaycan cəmiyyətinin müqəddəs hesab etdiyi ŞƏHİDƏ dil uzatması, 2010-cu ildə qəhrəmanlıq salnaməsi yaradan Mübariz İbrahimova "cinayətkar" böhtanını atması qətiyyən təsadüfi və heç bir özünü idarə edə bilməyən uşağın öz ağlının məhsulu deyil.

"Şəhid adının toxunulmazlığını, müqəddəsliyini, milli ruhu sıradan çıxarmaq kimin marağındadır" sualına cavab axtaranda ortaya olduqca maraqlı faktlar çıxardıq. Bəlli oldu ki, Nərmin Şahmarzadə və ona sosial şəbəkələrdə qahmar çıxan gənclərin (maraqlıdır ki, onların əksəri qızlardır) hamısı, o cümlədən Nərmin Şahmarzadə anti-Azərbaycan, erməniprəst mövqeyi ilə tanınan Çexiyanın PİN (People in Need) və ABŞ-ın NED - Milli Demokratiya Fondunun (National Endowment for Democracy) təlimlərində beyni yuyulmuş azərbaycanlılardır.

Öncə PİN və NED təşkilatları və onların anti-Azərbaycan fəaliyyəti haqda qısa məlumat verək.

PİN 1992-ci ildə Praqada Simon Panek və Yaromir Ştetinin yaratdıqları qurumdur. Bu şəxslər dəfələrlə müsahibələrində etiraf ediblər ki, təşkilat Ermənistana və Dağlıq Qarabağdakı separatçılara yardımların təşkili zamanı formalaşıb.

"People in Need"in qurucuları təşkilat təsis olunmamışdan 4 il əvvəl, yəni 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələ qurbanlarına humanitar yardım göstərən qrupa da cəlb olunublarmış.

2011-ci ildə Simon Panek erməni saytına verdiyi müsahibəsində deyib ki, "biz yardımı təyyarə ilə İrəvana çatdırdıq. Oradansa "KamAZ"lara yükləyib şəxsən Dağlıq Qarabağa apardıq".

Burada bir haşiyə çıxaq: Həmin müsahibəsində Panek Azərbaycanın Milli Qəhrəmanı, Xocalı aeroportunun komendantı olmuş Əlif Hacıyevi təhqir edib! O, Əlif Hacıyev haqqında deyib: "O, əsl qatil idi. Mənə demişdi ki, axşamlar adam ovuna çıxıram. Onun belə bir hobbisi vardı. Ona görə də onun ölüm xəbəri məni təəccübləndirməmişdi, axır ki, ermənilər onu tapıb güllələmişdilər". Deməli, Azərbaycan şəhidinin aşağılanması projesinin əsası hələ 2011-ci ildə qoyulub və bu gün də davam edir. Səbəbini isə az sonra açıqlayacağıq...

PİN-in Azərbaycana qarşı yaddaşlarda qalan daha bir təxribatı 2014-cü ildə baş verdi. 2014-cü ildə Batumidə keçirilən regional konfransda bu təşkilat Dağlıq Qarabağın müstəqil dövlət kimi tədbirdə iştirakına cəhd etmişdi. Habelə həmin konfransda Azərbaycanı orada təmsil edən media kapitanları bunun qarşısını almışdılar...

PİN haqqında mediada yayılmış faktlardan, iddialardan biri də odur ki, bu təşkilatın rəhbər şəxsləri 2010-cu ildə Rusiya xüsusi xidmət orqanları tərəfindən Dağlıq Qarabağ ərazisində orqan alveri ilə məşğul olduqlarına görə yaxalanıblar və "verbovat" ediliblər. Ermənistanın dəstəkçisi olan Rusiya PİN-dən həm də zaman-zaman Azərbaycana qarşı istifadə etmək imkanına da malikdir...

Və ən önəmli məsələ. "People in Need"i yaradan iki kişidən biri deyir ki, Dağlıq Qarabağ müstəqil dövlət olmalıdır...

ABŞ-ın NED təşkilatı isə davamlı şəkildə anti-Azərbaycan mövqeyi sərgiləyib. NED əsasən gizli qrantlar ayırır. Təkcə 2017-ci ildə "Gəncliyin iştirakçılığı" proqramı üzrə Azərbaycana 43.530 dollar, "Gənclərin Mülki İştirakçılığı" proqramı üzrə 28.440 dollar, vətəndaşların siyasi proseslərdə iştirakının gücləndirilməsi layihəsi üzrə 165.000 dolar pul ayırıb. Bunları təşkilat öz saytında bəyan edib. Lakin həmin pullar Azərbaycana Gürcüstan üzərindən gizli yollarla, müxtəlif adlar altında keçirilib və məhz milli ruhumuzu əzən, kosmopolit gənclər yetişdirən layihələrə sərf olunub. Azərbaycanın müvafiq qeydiyyat qurumlarına bu haqda hesabat verilməyib, razılıq alınmayıb.

Bu yaxınlarda politoloq Elçin Mirzəbəyli isə maraqlı bir statistika açıqlayıb. O bildirib ki, Azərbaycana qarşı aparılan kampaniyaların başında dayanan NED-in 2011, 2012, 2014 və 2016-cı illərdə öz nüfuz müvəkkillərinə əsasən Gürcüstan üzərindən ötürdüyü vəsaitlərin məbləği 4 595 903 ABŞ dollarıdır. Elçin Mirzəbəylinin sözlərinə görə, Milli Demokratiya Fondu əsasən Azərbaycana qarşı təxribat kampaniyalarının iştirakçısı olan radikal düşərgənin və onların QHT sektorundakı vasitəçilərinin xarici banklarda olan hesablarına 2011-ci ildə 1 207 839, 2012-ci ildə 1 403 867, 2014-cü ildə 913 578, 2016-cı ildə 1 070 619 ABŞ dolları vəsait köçürüb. Maraqlıdır ki, 2011, 2012 və 2014-cü illərdə bəzi istisnalar olmaq şərtilə NED-in qrant ayırdığı təşkilatların adı açıqlansa da, 2016-cı ildə qrant alan qurumların, yaxud şəxslərin adı gizli saxlanılıb. Doğrudur, NED-in daha öncəki illərdə maliyyələşdirdiyi qrant layihələrində də şəffaflıq prinsipinə əməl olunmayıb. Lakin 2016-cı ildə ayrılan qrantların kimlərə verildiyi barədə demək olar ki, məlumat yoxdur. Yalnız layihələrin adları və ayrılan vəsaitlərin məbləği açıqlanıb. Məsələn, "Mülkiyyət hüquqları", "İnsan haqlarının monitorinqi", "Regionlarda insan haqlarının monitorinqi", "İnformasiya azadlığı", "Siyasi institutların gücləndirilməsi", "Azərbaycanlı tərəfdaşların seçki və siyasi proseslərin şəffaflığını və hesabatlılığını təşviq etmək istiqamətində fəaliyyətlərinin dəstəklənməsi" və s.

Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, NED-in rəsmi internet səhifəsi olan ned.org saytında 2014-cü ildə Azərbaycanda QHT-lərə ayrılan qrantın məbləği qeyd olunub. Lakin digər ölkələrdən fərqli olaraq, Azərbaycanla bağlı məlumatlarda qrant ayrılan təşkilatların və qrantların adı qeyd olunmayıb. Yalnız qrantların istiqamətini qeyd ediblər. Ermənistan, Gürcüstanla bağlı məlumatlarda isə təşkilatların adları da qeyd edilib. QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, hüquq müdafiəçisi Sahib Məmmədov qeyd edir ki, Azərbaycanda qeyri-şəffaf qrantlara məhdudiyyətlər qoyulandan sonra gizli yollarla ötürülən xarici qrantların məbləği bir neçə dəfə artıb! Deməli, anti-Azərbaycan laboratoriyaları projelərini daha da böyüdürlər və artıq ilkin nəticələr də ortadadır.

Bu məqamı da qeyd edək ki, həm PİN, həm də NED-in layihələrində əsas donorlardan biri də Açıq Cəmiyyət İnstitutu - Soros Fondudur.

İndi keçək əsas suala: Azərbaycanda milli ruhu zəiflətmək, şəhidlərə qarşı böhtanlar yağdırmağa hesablanmış projelərin səbəbi, məqsədi nədir? Araşdırmalarımızdan və beyni yuyulmuş gənclərin birbaşa özü ilə manevrli söhbətlərdən əldə etdiyimiz məlumatlardan aydın olur ki, 2010-cu ildə Mübariz İbrahimov şəhid olarkən, daha sonra 2016-cı ildə aprel döyüşləri baş verərkən Azərbaycan xalqının ortaya qoyduğu Qarabağ sevgisi, milli ruh, hamının cəbhəyə getmək arzusu Qərbdə və Avropada erməniprəst qüvvələri məyus edib. Onlarda belə qənaət formalaşıb ki, Azərbaycan xalqı Qarabağla bağlı güzəştə gedən deyil və son nəfərədək hamı torpaq, vətən uğrunda şəhid olmağa hazırdır. Bundan sonra anti-Azərbaycan laboratoriyalarında Azərbaycanda milli ruhu zədələmək, şəhidliyin guya heç də qəhrəmanlıq olmaması kimi yaramaz fikirlər formalaşdırmaq, içimizdə çatlaq səslər verən bir kosmopolit qrup formalaşdırmaq projesinə start verilib. Faktiki olaraq aprel döyüşlərindən sonra bu istiqamətdə xeyli addımlar atılıb. NED və PİN-in xətti ilə Bakı və regionlarda xeyli gənci təlimlərə cəlb ediblər. 2019-cu ilin yanvar ayında isə Bərdə rayonunda belə bir növbəti təlim planlaşdırılıb.

Əlbəttə, bunlar xalqın ümumi ruhuna, şəhidinə münasibətinə təsir göstərə bilməz. Amma fərz edək ki, sabah müharibə başlayıb, biz şəhidlər veririk və bir dəstə azərbaycanlı gənc şəhidliyə, mübarizəyə qarşı iyrənc kampaniya aparır. Bu, çox ağır nəticələrə səbəb ola bilər.

Odur ki, müvafiq hüquq-mühafizə orqanlarının belə beyni yuyulmuş gənclərə ciddi yanaşması, onları nəzarətə götürməsi zərurəti var və heç şübhəsiz ki, bu addımlar atılacaq.

Sonda bir vacib detalı da xüsusi olaraq vurğulayaq: Müzakirələrdə bəziləri Azərbaycan dövlətinin Qarabağ münaqişəsinin həlli ilə bağlı apardığı diplomatik danışıqlarla, güzəştsiz Sülh Platformasının fəaliyyəti ilə "çatlaq səslər" arasında paralellər (?) aparmağa çalışırlar. Bu, çox uğursuz bir müqayisədir. Diplomatik mandat almış peşəkarlar sülh prosesini müzakirə etməlidir, çünki bu müharibə əbədi ola bilməz. Münaqişə ərazi bütövlüyümüz çərçivəsində və şəhidlərimizin müqəddəs ruhu qorunmaqla həll oluna bilər. Hansısa beyni yuyulmuş gənclərin isə müqəddəslərimizi, milli ruhumuzu, şəhidlərimizi aşağılaması tamamilə fərqli bəd əməldir, müqayisəsi belə yolverilməzdir.

**❑ Elşad MƏMMƏDLİ, "Yeni Müsavat"**



## Rusiya xarici hərbçilərin Ermənistana girişini yasaqlayır

### Lavrov yeni sənədin anonsunu verdi

**“Moskva və İrəvan yeni sənəd üzərində işləyirlər”. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov Rusiya mətbuatına açıqlamasında deyib.**

Rusiya XİN rəhbərinin sözlərinə görə, sənəd Ermənistanda xarici hərbçilərin yerləşdirilməməsinə təminat verilməsini özündə ehtiva edir.

S.Lavrov qeyd edib ki, hazırda Rusiya və Ermənistan sənədin hazırlanması prosesini başa çatdırmaq üzrədir. XİN başçısının sözlərinə görə, imzalanacaq sənəd təhlükə və risklər baxımından şəffaflığın təmin edilməsinə də imkan verəcək.

Belə görünür ki, Rusiya Ermənistanı Qərbin ixtiyarına buraxmamaqda israrlıdır. Paşinyan hökumətinin Qərbə meyillənməsini özünə təhlükə sayan Kreml növbəti sənədlə Ermənistanda daha da möhkəmlənməyi hədəfləyir. Hansı ki, Rusiya Ermənistanda ordu saxlamaqla bağlı 40 illik sənədi hələ ötən əsrin sonlarında imzalayıb.

Xüsusilə də İran ətrafındakı vəziyyət Ermənistanı Qərb üçün cəlbedici ölkəyə çevirib. ABŞ və Avropa Ermənistanla Rusiyanın arasını vurmaqla, bu ölkədə möhkəmlənmək istəyir.

Görünür, Moskva bu təhlükəni qabaqlamaq üçün Ermənistan ərazisini “xarici hərbçilər”in üzünə qapatmaq istəyir. Maraqlıdır, Qərbə meyillənən Paşinyanın reaksiyası necə olacaq?

## Merkel AB ölkələrindən səfirlikləri Qüdsə köçürməməyi xahiş edib

**Almaniya kansleri Angela Merkel Avropa Birliyi dövlətlərini öz səfirliklərini Qüdsə daşımamağa çağırıb. Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə “Jerusalem Post” qəzeti “İsrail uğrunda Avropa koalisiyası” təşkilatının rəhbəri Tomas Sandellə istinadən məlumat yayıb.**

Sandellin sözlərinə görə, kansler şəxsən Rumıniya prezidenti Klaus Yohannisə zəng edərək ondan belə bir xahiş edib.

“Biz bu xəbəri çoxdan bilirdik. Öz səfirliklərini Qüdsə köçürmək istəyən Şərqi və Mərkəzi Avropa ölkələrindən rəsmi Berlin tərəfindən belə bir addım atmamaları rica olunub”, - deyə Sandell bildirib.

Xatırladaq ki, daha öncə Avstraliya Qərbi Qüdsü İsrail paytaxtı olaraq tanımadığını bəyan edib.

Rəsmi Kanberranın qərarı Benyamin Netanyahu hökuməti tərəfindən narazılıqla qarşılanıb.

## Noyabr ayında 42 Azərbaycan vətəndaşına Gürcüstana giriş qadağan olunub

**Bu ilin noyabr ayında 1151 xarici vətəndaşa Gürcüstana giriş qadağan olunub. Bu barədə ölkənin Daxili İşlər Nazirliyinin statistik hesabatında bildirilib.**

Ötən ay ən çox İran vətəndaşlarının (434 nəfər) Gürcüstana girişi qadağan edilib. Daha sonra Hindistan (370 nəfər) və Türkiyə (46 nəfər) vətəndaşları gəlir.

Noyabr ayında Gürcüstana girişinə qadağa qoyulan Azərbaycan vətəndaşlarının sayı 42 nəfər təşkil edib.

Hesabat ayında 44 Rusiya, 43 Özbəkistan, 33 Türkmənistan, 30 Pakistan vətəndaşı Gürcüstana buraxılmayıb. Qonşu ölkəyə girişə qadağa qoyulan Ermənistan vətəndaşlarının sayı isə 14 nəfər təşkil edib. (Report)

# “Psixoloq”un şahmar ilana çevrilməsi...

**Özünü “psixoloq” kimi təqdim edən Nərmin Şahmarzadənin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu “cinayətkar” və “qatil” adlandırması cəmiyyətdə haqlı olaraq, kəskin reaksiyalara səbəb olub. Gənc qızın mövqeyinə olan reaksiyalar bir daha onu göstərdi ki, Azərbaycan xalqı Qarabağı güzəştə gedə bilməz. Ekspertlər bildirirlər ki, bu, eyni zamanda Qarabağı Ermənistana güzəştə getməyi düşünən xarici qüvvələrə də sərt mesajdır. Onlar da gedən proseslərdən anlayırlar ki, xalq başına gələnləri bağışlamaq, torpağını düşmənə güzəştə getmək fikrində deyil.**





**Fəzail Ağamalı:** “Mübariz İbrahimov kimi şəhidimizi təhqir edənin əməllərinə Azərbaycan qanunları çərçivəsində hüquqi qiymət verilməlidir”
**Əhməd Qəşəmoğlu:** “Yazının ortaya çıxması müəyyən yad siyasi texnoloqlara xidmət edə bilər”

**“Yeni Müsavat”a danışan deputat Fəzail Ağamalı bildirib ki, Nərim kimilər cəmiyyətdə var və onların müəyyən hissəsi həm də xaricdə yaşayır:** “Onları antimilli insanlar adlandırardım. Mübariz İbrahimov kimi həyatını torpağın azad edilməsinə qurban verən, təkbaşına çoxsaylı işğalçı erməni əsgərlərini haqqına öldürən dəyərli övladımıza edilən həqarətin arxasında əxlaqsızlıq dayanır. Bu cür insanlar təbii ki, Azərbaycanla bağlı olmayan, daha çox kosmopolit, həm də erməni xalqı, dövləti ilə bu və ya digər tellərlə bağlı olan şəxslərdir. Ona görə də düşünürəm ki, hər halda, Nərmin kimi şəxslərin sosial şəbəkələrdəki fəaliyyətinə bizim vətənpərvər, millətini, torpağını sevən vətəndaşlarımız tərəfindən lazımi cavab verilir. Hesab edirəm ki, bu, kifayət deyil. Cəmiyyətdə yetərincə xoşagəlməz diskussiya açan, Mübariz İbrahimov kimi şəhidimizə təhqiramiz fikirlər söyləyən bir adamın əməllərinə Azərbaycan qanunları çərçivəsində hüquqi qiymət verilməlidir. Bu, heç bir halda fikir azadlığının qarşısının alınması, ona qarşı görülmüş tədbir kimi dəyərləndirilməli deyil. Çünki Mübariz İbrahimov sıradan bir insan deyil. O, Azərbaycan ordusunun, əsgərinin, ölkəmizin vətənpərvər övladlarının simvoludur. Ona qarşı göstərilən hörmətsizlik, bütün dediyim təbəqəyə, xalqımıza qarşı olan təhqirdir. Bu baxımdan məsələyə hüquqi qiymət verilməlidir”.

**Deputat bildirib ki, hadisə Azərbaycan xalqının şəhidinə verdiyi yüksək qiyməti də ortaya qoydu:** “Deyirsə ki, oradakı əsgərlər məsumdur və sairə, bunun sadə bir cavabı var. Bu əsgərin Azərbaycan torpağında nə işi var? O erməni əsgəri Azərbaycan torpağındadırsa, deməli, ölməyə məhkumdur. Bu, birmənalıdır. Mübariz İbrahimov əgər gedib, sülhün hökm sürdüyü zaman kəsiyində Ermənistanda dinc əhalini, qadınları, uşaqları öldürsəydi, o, haradasa bu və ya digər şəkildə qınaq obyektinə çevrilə bilərdi. Mübariz İbrahimov Azərbaycan torpağında işğalçı ordu olan Ermənistan əsgərlərini öldürüb və bunu tamamilə doğru edib. Məsələnin başqa bir izahı yoxdur. Kim bunun əleyhinə gedirsə, deməli, o, Mübariz İbrahimovun yanında deyil. Ümumiyyətlə, bu adamlar heç Azərbaycan xalqının da yanında deyillər. Heç şübhə etmirəm ki, onların damarlarından erməni qanı axır. Araşdırılsa, dediklərimin şahidi olacaqsınız. Ona görə də deyirəm ki, hər zaman bələləri olub və gələcəkdə də olacaqlar. Onlara qarşı isə Azərbaycanın vətənpərvər insanları, gəncliyimiz dayana bilir. Biz aprel döyüşlərində ermənilərə çox ciddi və ağır zərbələr vurduq. Orada şəhid olanlar coşqunluqla dəfn edildi. Heç kim şəhidlərin dəfninə dəvət edilmədi. İnsanlarımız öz istəkləri ilə həmin mərasimlərə qatıldılar. Bu, Azərbaycan cəmiyyətinin, xalqının şəhid olmuş övladına olan münasibətinin parlaq ifadəsi idi. Ataların bir misalını deməyə məcburam. Xahiş edirəm ki, dəyərli soydaşlarım, bunu kobud ifadə kimi qəbul etməsinlər. İt hürər, karvan keçər. Biz Ali Baş Komandanımız, cənab prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edəcəyik. Ermənilərin də qanını bu torpaqlarda tökəcəyik. Bunun alternativi yoxdur”.

**Məsələ ilə bağlı danışan sosioloq Əhməd Qəşəmoğlu isə söylədi ki, hazırda yaranmış mənzərə xoşagələn deyil:** “Birdən-birə tələbə qızın ortaya çıxıb belə yazı paylaşması özü şübhə doğurur ki, hadisə hansısa siyasi texnologiya ola bilər. Mümkündür ki, yazılanlar həmin qızın fikri deyil. Lakin bu da istisna deyil ki, o, elə öz fikrini ifadə edib. Əgər özü yazıbsa, bu da başqa bir problemdir. Deməli, biz hələ də gənclərimizdə lazımi vətənpərvərlik hisslərini aşılaya bilmirik. Özü də baxırıq ki, bu qız psixoloq adı ilə tirajlanır. Əslində isə həmin qız psixoloq deyil, tələbədir və psixologiyanı öyrənir. ”Azərbaycanlı psixoloq belə dedi" başlığı ilə məsələni dünyada tirajlamağın özü də yanlışdır. Psixologiya öyrənən adam sosial psixologiyanın tələblərini bilməlidir. Bilməlidir ki, onun bu fikri cəmiyyətdə hansı reaksiyanı doğurar, hansı mənzərə yaradar. Bu baxımdan onun psixologiya sahəsindəki biliyini aşağı qiymətləndirirəm. Sosial psixologiyanı bilmirsə, adam özünə necə psixoloq deyə bilər? İkincisi də lap psixoloqdur və belə bir düşüncədədir. O zaman anlamalıdır ki, fikir cəmiyyət üçün deyil. Sadəcə olaraq, hansısa seminarda deyilə bilər. Bunun indiki halda belə bir şəkildə ortaya çıxması nə elmi, nə də etik baxımdan doğru deyil. Yazının ortaya çıxması müəyyən yad siyasi texnoloqlara xidmət edə bilər. Yəni bunu kimsə bilərəkdən həyata keçirməyibsə belə, artıq müəyyən qüvvələr siyasi texnologiya vasitəsi kimi bundan bəhrələnə bilərlər. Azərbaycan cəmiyyətinin reaksiyasını yoxlayıb, müəyyən nəticələrə gələrlər. Təəssüf ki, müəyyən bir qrup həmin qızı dəstəkləyir. Bilə-bilə ki, ölkədə məsələyə münasibət nə dərəcədədir, ancaq yenə də dəstəkləyirlər. Bunun özü də təhlil üçün müəyyən bir materialdır. Ona görə də hadisənin olması heç də xoşagələn deyil. Təhsil müəssisələrimizdə vətənpərvərliklə bağlı təbliğat işlərini daha da gücləndirmək üçün işlər aparmaq lazımdır".

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

# Müxalifətin zirvə görüşündə üç aparıcı partiya iştirak etməyə bilər

**Sabiq daxili işlər naziri, AMDP sədri İsgəndər Həmidovun təşəbbüsü ilə keçiriləcək "Müxalifətin zirvəsi"nə bir həftə qalır. Dekabrın 25-də saat 12:00-da KXCP-nin qərargahında təşkil olunacaq zirvə görüşünə dəvət olunan partiya sədrlərinə, tanınmış siyasətçilərə artıq dəvətnamələr göndərilib.**

**Bu barədə "Yeni Müsavat"a danışan İ.Həmidov siyasətçilərlə bir-bir görüşdüyünü söylədi:** "Görüşlərimiz davam edir. Dəvətnamələrin artıq demək olar ki, əksəriyyəti paylanılıb. Dəvətnamələrdən başqa dəvətlilərlə fərdi görüşlərə də ciddi üstünlük veririk. Hazırda Əvəz Zeynallı ilə birlikdə Ümid Partiyasının qərargahında İqbal Ağazadə ilə görüşdəyik. Bundan sonra da KXCP sədri Mirmahmud Mirəlioğlu ilə görüşəcəyik. Bizim təşəbbüsə münasibət çox yaxşıdır. Ayın 25-də saat 12:00-da hər kəsi dəyirmi masa ətrafında görmək istəyirik. Hər kəs gəlib öz fikirlərini deyəcək. Bu bir toplantıdır. İşlərin normal getdiyini düşünürük. İndiyə qədər dəyirmi masa ilə bağlı elə siyasətçi olub ki, onunla dörd dəfə görüşmüşəm. O məni inandırır, mən də onu. Ədalət Partiyasının sədri İlyas İsmayılov istisna olmaqla, dəvətlilərin demək olar ki, hamısı ilə görüşmüşəm. İlyas müəllim də Moskvada olduğu üçün onunla görüşə bilməmişəm. Həftənin üçüncü günü o, gələcək və dərhal onunla da görüşəcəm".

**"Müxalifətin zirvəsi"nin təyin olunduğu ilk günlərdə tədbirin VHP qərargahında keçiriləcəyi deyilsə də, sonradan məkan olaraq KXCP seçildi. İsgəndər bəy bu məsələyə də aydınlıq gətirdi:** "Burada heç bir səbəb yoxdur. Düzdür, ilk olaraq VHP-ni seçmişdik. Sonradan məlum oldu ki, ora Sabir bəygilin qərargahı deyil. Ora vergilərdən filan yoxlamalar gələ bilərdi. Ona görə yeri dəyişməyə qərar verdik. Toplantıya qalan günlər ərzində indiyə qədər gördüyümüz işləri davam etdirəcəyik".




**İsgəndər Həmidov:** "İşlərin normal getdiyini düşünürük"
**Natiq Cəfərli:** "Belə bir şəraitdə iştirak etməmək ehtimallarımız daha çoxdur"

40-a yaxın siyasətçinin dəvət olunduğu "Müxalifətin zirvəsi" yaxınlaşdıqca kimlərin iştirak edəcəyi, yaxud iştirak etməyəcəyi ciddi suallar doğurur. Artıq bəzi ehtimallar səslənməyə başlayıb. Müsavat başqanı Arif Hacılının, AXCP sədri Əli Kərimlinin, REAL sədri İlqar Məmmədovun zirvə görüşünə qatılmayacaqları barədə iddialar səslənir. Buna səbəb kimi də Ə.Kərimlinin başqa bir formatda birlik yaratmaq təşəbbüsü ilə çıxış etməsi və bunun üçün bir sıra siyasətçilərlə görüşü göstərilir.

**Müsavat və AXCP-dən məsələ ilə bağlı münasibət ala bilməsək də, REAL-dan mövqe öyrənmək mümkün oldu. Qurumun icraçı katibi Natiq Cəfərli böyük ehtimalla "Müxalifətin zirvəsi"ndə iştirak etməyəklərini açıqladı:** "Bizə iştiraklа bağlı birbaşa müraciət hələ daxil olmayıb. Bu məsələ partiya daxilində müzakirə olunmayıb. REAL-da qərarlar İdarə Heyəti tərəfindən verilir. Zirvə görüşünün məqsədi, məramı, formatı hələ məlum da deyil. Ona görə də iştirakla bağlı hələ ki qərarımız yoxdur. Amma bizim müxtəlif müzakirələr, debatlar, fərqli məsələlər üzrə ictimai maraq doğuracaq səviyyədə müzakirələr üçün qapılarımız hər zaman açıqdır, istər müxalifət, istərsə də iqtidar nümayəndələri üçün olsun, bizə fərq etmir. Ölkə yararı üçün hər hansı bir dialoq ortamı yaranacaqsa və bu, praqmatik bir dialoq olacaqsa, biz hər zaman hazırıq. Amma hər hansı bir birlik formatında iştirak etməklə bağlı nə qərarımız, nə də niyyətimiz var. Çünki Azərbaycanda son 20 ildə 11 birlik modeli olub. Bunların heç biri, yüngül desək, uğurlu modellər olmayıb. Belə modellərin öncədən bəlli bir məqsədi, gündəliyi olmalıdır. Açığı, bizim üçün hələ də bu zirvə görüşünün məqsədi, məramı, proqramı və atılacaq addımların ardıcıllığı məlum deyil. Ona görə iştiraklа bağlı hələ qərar verməmişik. Dəvət gəlsə də, belə bir şəraitdə iştirak etməmək ehtimallarımız daha çoxdur".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Hansı müxalif partiya liderləri cangüdənlə gəzir?

## Düşərgədə əksər sədrlər buna lüzum görmür

**1990-cı illərin ortaları, 2000-ci illərin əvvəllərində Azərbaycanın müxalifət düşərgəsinin güclü olduğu zamanlarda partiya liderlərinin bir çoxu şəxsi mühafizələrlə əhatə olunurdu. Onların sıralarında 10 nəfərə yaxın şəxsi cangüdəni olanlar da var idi.**



Son illər müxalifət partiyaları əvvəlki güclərini xeyli itirmiş görünürlər. Bunu hətta həmin partiyaların özləri də etiraf edirlər. Bəs müxalifət düşərgənin əvvəlki gücünü itirməsi partiya liderlərinin cangüdənlərdən imtina etməsinə səbəb olubmu? Hazırda hansı partiya rəhbəri mühafizəçi ilə gəzir?

Müsavat Partiyasının lideri, sabiq başqan İsa Qəmbər hazırda mühafizəçilərdən istifadə eləmir. Partiyanın başqanı Arif Hacılı da mühafizəçisiz fəaliyyətə üstünlük verir. Bu barədə Müsavatdan bildirdilər.

**ADP sədri Sərdar Cəlaloğlu də mühafizəçiyə ehtiyac duymur:** "Azərbaycan Demokrat Partiyası bir zamanlar hakimiyyətin əsas hədəfində idi. Partiyamızın üzvlərinə qarşı hər cür qanunsuzluqlara əl atılırdı. O dövrdə partiyamızın üzvlərinin təşəbbüsü ilə kütləvi aksiyalarda və tədbirlərdə mənim mühafizəm təşkil edilirdi. Lakin heç zaman öz təşəbbüsümlə şəxsi cangüdəndən istifadə etməmişəm. İndi də istifadə etmirəm".

**VİP sədri də Əli Əliyev mühafizəçiyə ehtiyac duymadığını dedi:** "Ehtiyac duymamam səbəbilə bu kateqoriyadan olan vakansiyamız yoxdur. Yalnız kütləvi tədbirlərdə iştirak üçün müvafiq komandamız var. Bu qədər".

AXP sədri Pənah Hüseyn isə bildirdi ki, müxalifətdə olduğu heç bir dövrdə mühafizəçidən istifadə etməyib. Bu gün də istifadə etmir.

KXCP sədri Mirmahmud Mirəlioğlu da mühafizəsiz fəaliyyət göstərir.

AMİP lideri Etibar Məmmədovun da mühafizəçisi yoxdur. AMİP katibi Əli Orucov bildirdi ki, Etibar bəyin əvvəllər mühafizəçiləri olub. Hazırda isə yoxdur.

VHP sədri Sabir Rüstəmxanlı da mühafizəçisizdir. Partiyadan bildirildi ki, sədr cangüdənlə hərəkət etməyə üstünlük vermir.

Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər də mühafizə xidmətindən yararlanmayan siyasətçilərdəndir.

**Ümid Partiyasının sədri İqbal Ağazadənin isə həmişə olduğu kimi indi də mühafizəçisi var. Bu barədə onun müavini Tamella Qulami məlumat verdi:** "Bəli, İqbal bəyin mühafizəçisi var. Nə üçün ehtiyac duyduğu barədə sualınıza isə cavabı İqbal bəy özü daha dəqiq bilir".

Müxalifət düşərgəsində cangüdəni olan digər partiya lideri AXCP sədri Əli Kərimlidir. Əli Kərimlinin iki mühafizəçisi var.

AĞ Partiyanın sədri Tural Abbaslı isə mühafizə xidmətindən istifadə etməyən partiya sədrlərindəndir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Son 8 ayda işdən çıxarılan icra başçıları...

## Əhalinin narazı olduğu "kiçik padşahlar" bir-bir vəzifədən azad edilir



**2018-ci ildə keçirilən prezident seçkilərindən sonra hökumətdə və idarəetmədə aparılan islahatlar fonunda bir neçə icra başçısı da vəzifəsindən azad edildi. Azad edilən icra başçılarının və digər məmurların yerinə əsasən gənc kadrlar gətirildi ki, bunu da ekspertlər müsbət qiymətləndirdilər. Hələ yay aylarında "Yeni Müsavat" qəzetində çap olunan təhlil yazısında bildirilirdi ki, təxminən 20-yə yaxın icra başçısının fəaliyyətindən doğan əsaslı şikayətlər Prezident Administrasiyası tərəfindən müxtəlif yollarla araşdırılıb və əmin olunub ki, artıq bir sıra yerli icra hakimiyyətlərinin başçıları şikayətlərə bağlı yuxarının özünü də düzgün məlumatlandırmırlar.**

2018-ci ildə əhalinin narazı olduğu bir sıra icra başçısı vəzifəsini itirdi. Prezidentin sözügedən icra başçılarının vəzifədən azad olunmaları ilə bağlı sərəncamlarını ictimaiyyət də yüksək qiymətləndirdi.

Sonuncudan başlasaq, dekabrın 13-də Xətai rayonunun icra başçısı Razim Məmmədov ölkə başçısının sərəncamı ilə tutduğu vəzifədən azad edildi. O, hələ vəzifəsindən azad edilməzdən öncə qanunsuz əməlləri barəsində mətbuatda çoxsaylı yazılar dərc edilmişdi. Xüsusilə də Razim Məmmədovun adı qanunsuz tikililərdə hallanırdı. Bildirilirdi ki, Bakının Xətai kimi iri rayonunda icra başçısı xeyli saysız-hesabsız qanunsuz tikililərə göz yumub, bu və ya digər səbəblərdən idarəçilikdə nöqsanlara yol verir. Bəs Məmmədov bu vaxta qədər hansı işlə məşğul olmuşdu?

Məmmədov Razim İsa oğlu 21 iyun 1966-cı ildə Qərbi Azərbaycanda, Sisiyan rayonunun Ağudi kəndində anadan olub.

İlk əmək fəaliyyətinə 1983-cü ildə "Azərittifaq"ın Kitab Ticarəti idarəsində fəhlə və komplektləşdirici kimi başlayıb. 1984-1986-cı illərdə hərbi xidmətdə olub.

1991-ci ildə Moskva Kooperasiya İnstitutunun Əmtəəşünaslıq fakültəsini, 2004-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.

1999-cu ildə yaradılmış "Real-İnşaat" firmasının həmtəsisçisi, 2004-cü ildə Sumqayıt şəhərində yaradılmış "Real Tibb Mərkəzi" MMC-nin təsisçisi və direktoru olub.

Prezidentin 26 sentyabr 2006-cı il tarixli sərəncamı ilə Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdi. Hələ ki onun yerinə hər hansı bir şəxs təyin edilməyib.

2018-ci il seçkilərindən sonra qanunsuz əməlləri barədə mətbuatda saysız-hesabsız yazılar dərc edilən Binəqədi rayonunun icra başçısı Xaləddin İsgəndərov da vəzifəsindən azad olundu. Onun da adı qanunsuz tikililərdə, korrupsiya, rüşvət faktlarında, yararsız idarəçilikdə hallanırdı.

Bu ilin iyun ayında prezidentin sərəncamı ilə Ağdamın icra başçısı Raqub Məmmədov da vəzifəsindən azad edildi. İcra başçısı olmadan öncəki fəaliyyətinə gəlincə isə o, 1983-1986-cı illərdə Ağdam Rayon "İnqilab" üzümçülük sovxozunda mühəndis kimi əmək fəaliyyətinə başlayıb.1986-1987-ci illərdə Azərbaycan LKGİ Ağdam Rayon Komitəsində ikinci katib, 1987-1991-ci illərdə Azərbaycan LKGİ Ağdam Rayon Komitəsində birinci katib 1991-1992-ci illərdə Azərbaycan Respublikası Gənclər Birliyi Ağdam rayon təşkilatında sədr vəzifəsində işləyib.

1993-2014-cü illərdə təhlükəsizlik orqanlarında xidmət edib. Sonuncu iş yeri Milli Təhlükəsizlik Nazirliyinin Tərtər rayon şöbəsinin rəisi vəzifəsi olub.

İyun ayında həmçinin Tofiq Məhəmmədəli oğlu Zeynalov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edildi.

Oktyabrın 5-də Beyləqan rayon icra başçısı Vaqif İdris oğlu Abdullayev prezidentin sərəncamı ilə vəzifəsindən azad edildi.

Oktyabrın 30-da Şamaxının icra başçısı Asif Ağayev prezidentin sərəncamı ilə vəzifəsindən azad edildi. Dövlət başçısının digər sərəncamı ilə A. Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edildi. Onun yerinə Tahir Məmmədov icra başçısı təyin olunub.

Məlum Gəncə hadisələrindən sonra xəsarət alan şəhərin icra başçısı Elmar Vəliyev avqustun 28-də tutduğu vəzifədən azad olundu. Prezidentin digər sərəncamı ilə Mingəçevirin icra başçısı Niyazi Müzəffər oğlu Bayramov da vəzifəsindən azad olundu. Digər sərəncamla o, Gəncəyə icra başçısı təyin olundu.

Avqust ayından dekabra qədər Mingəçevirə icra başçısı təyinatı olmadı. Yalnız dekabr ayının 17-də bu yazını hazırladığımız zaman ölkə başçısının sərəncamı ilə İlham Mehdixan oğlu İsmayılov Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilib.

Qeyd edək ki, İ. İsmayılov bu təyinatadək Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışıb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Sarı gəlin yurdundan sarı jiletlilər ölkəsinə məsləhətlər

Zamin HACI
zaminhaci@gmail.com

"Bəli, Parij şəhəri Əqrəb bürcünün altında vaqe imiş, əməl tamamdır. Bu bürcün təsirindəndir ki, bu şəhərdən heç vaxt bəla əskik olmaz"

***(Mirzə Fətəli Axundov, "Hekayəti-Müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur" pyesindən)***

**Fransada sarı jiletlilərin üsyanları davam etməkdədir. Bildiyiniz kimi, bu inqilabi hərəkat artıq iki aya yaxındır davam edir, hökumət tələbləri yerinə yetirsə belə qurtarmır. Doğrudur, sonuncu aksiyada - ötən bazar iştirakçı sayında əməllicə azalma olmuşdur, Makron müəllimin hökuməti də ümid edir ki, Yeni il bayramı yaxınlaşdığından növbəti aksiyalara daha az adam gələcəkdir və mitinqlər yavaş-yavaş sönüb gedəcəkdir. Hələliksə vəziyyət gərgindir. Ölkə iqtisadiyyatına 10 milyard avroya yaxın zərər dəyib, Paris və Fransa lap Müsyö Jordanın dediyi kimi, "dağılır, xarab olur".**

Ancaq burada Fransa hökumətinin əfəlliyi, müsbət dünya təcrübəsindən, misal üçün, Azərbaycandan öyrənməməsi rolunu oynayır. Özü də maraqlıdır ki, sanki hadisələrin başlanma günü də Azərbaycan təcrübəsinə işarə edirdi. Sarı jiletlilərin ilk böyük etiraz aksiyası 17 noyabrda olmuşdu, bu isə bildiyiniz kimi, bütün dünyada azərbaycanlıların Milli Dirçəliş Günü sayılır. 1988-ci ilin məhz 17 noyabrında uca millətimiz Bakının Lenin meydanında fasiləsiz etiraz aksiyalarına başlamışdır, nəticədə sovet hakimiyyəti yenidən bərpa olunmuşdur. Əla bayramdır, hamıya qismət olsun, Hər xalqa Nemət, Əbülfəz, Sabir, Ənvər müəllim kimi liderlər, Yurd hərəkatı kimi gənclər təşkilatları qismət olsun, ilahi, amin!

Təsadüfi deyildir ki, hazırda fransız xalqı bütün dünyada "İlin xalqı" elan olunubdur, aksiya iştirakçıları isə bəyan edir ki, əgər Makron imkan versə Eyfel qülləsini yarım millimetr qızılla örtərik. Ümumiyyətlə, Makronun bambılı olduğunu elan ediblər.

Bir də ona fikir verməliyik ki, hazırda sarı jiletlilər hərəkatının bir dənə də lideri yoxdur. Camaat başıpozuq formada meydanlara çıxır. Bəlkə bu səbəbdən Makron aksiyaları dağıtmaqda çətinlik çəkir. Sən bunlara çoxlu lider qayır, qoy bir-birilərini qırsınlar da bə! Lidersiz müxalifət, sarımsaqsız xaş - heç fərq eləməz, ikisi də mənasız şeydir. Əgər sarı jiletlilərin 3-4 dənə radikal lideri olsaydı onlar hakimiyyətə gəlmək üstündə davaya başlayardılar. Biri deyərdi ən güclü sarı jiletlilər mənim tərəfdarım - Marseldən gələnlərdir. O biri deyərdi, qaqaş (ya da müsyö), çaşma, Bordo ayağa qalxanda siz harada idiniz. Üçüncü lider səhər normandiyalıların, axşam strasburqluların yanında olmaqla aranı elə qatardı ki, Napoleon dirilib gəlsə Fransanı birləşdirə bilməzdi. Biz Azərbaycan müxalifətinin təcrübəsindən bilirik, lider vacib şeydir. Özü də bizim iqtidarın Fransa hökuməti ilə münasibətləri həmişə yaxşı olub. Bu baxımdan, Emmanuel Makronun Azərbaycan hakimiyyətindən yardım istəməməsi qeyri-adi haldır. Neçə dənə lazımdırsa, o qədər müxalifət lideri ixrac edə bilərdik. Pay verərdik lazım gəlsə. Mitinqi dağıtmağa qazdan, sudan da böyründə bonus olaraq. Vaxtilə gürcülərə vermişdik.

Hərçənd insaf naminə fransızların probleminin daha dərin olduğunu yazmalıyıq. Lap müxalifət üçün lider göndərdik, qaz verdik, bəs bunları hara yığmalı? Məsələ odur ki, Parisdə "Məhsul" stadionu yoxdur. Heç Motodrom və Qələbə kinoteatrı da. Düzdür, Zəfər tağının adı bir az uyğun gəlir, ancaq adında tağ deyirsən. Kinonun qabağı olmalıdır, yoxsa kino çəkmək çətin olur. Hərçənd, babat lider olsa bazar günü "Hamınız Zəfər tağının qabağında oturun, bu gündən burdayıq" deyib aranı qarışdıra bilərdi.

Qaldı sarı jiletə, bizdə bunu geyinənlər əsasən zənən xeylaqlarıdır, küçə süpürürlər, nazir nəvələri, rəis uşaqları, topal futbolçular (hamısına neft puluyla Lamborgini, Ferrari-zad alıb vermişik, çünki yeriyə bilmirlər) isə onları vurub öldürürlər. Görünür, Fransada nazir nəvələrinə, topal futbolçulara maşın vermək üzrə dövlət proqramı yoxdur. Makron bunu fikirləşsin. Dünya çempionu olan futbolçu sənə lazımdırmı? Əvəzində Paris xaraba qalır. Ver maşını altına, qoy sarı jiletliləri qovalasın.

Zinəddin Zidanı Kann-Paris trasına yol polisinin rəisi qoymaq da yaxşı olardı. Görüm orda hansı sarı jiletli benzinin qalxmasına etiraz edərdi. Kəlləni qoyardı ağzının üstündən, Materazzi kimi uçurdardı.

Dövlətçilik ayrı şeydir, hər yerdə olmur.



# Azərbaycana 4 paytaxtdan mühüm dəstək - İrəvan təklənir

## "Rus NATO-su" ətrafında "sular" durulur; Paşinyan "Bakının adamı"na səs verməli olacaq; Rusiya Bakıya silahları daxili bazar qiymətinə satacaq - təhlükəsizlik ekspertindən ilginc iddia...

**Ermənistanın yeni rəhbərliyinin cidd-cəhdlərinə rəğmən, "Rus NATO-su"nun (KTMT) rəhbəri erməni olmayacaq. Bunu indi əminliklə söyləmək olar. Qurumun növbəti baş katibi yəqin ki, Belarus nümayəndəsi, daha dəqiqi, vaxtilə Bakıda hərbi təhsil almış general Stanislav Zasya olacaq.**

Keçən həftə belaruslu general Qazaxıstan və Tacikistanda olub, iki ölkənin prezidentləri ilə - Nursultan Nazarbayev və İmaməli Rəhmonla görüşüb. Hər iki prezident onun namizədliyini dəstəkləyib. Rusiyanın da mövqeyi çoxdan bəlli. Prezident Vladimir Putinin erməni baş nazir əvəzi Nikol Paşinyana ən böyük güzəşti sonuncunun xahişi ilə KTMT-nin yeni baş katib məsələsinin müzakirəsinin 9 dekabr parlament seçkilərindən sonraya saxlanması oldu. Çünki rəsmi İrəvan məsələdə uğursuz mövqedədir, yeni baş katibin Ermənistandan olmayacağına əminliklə hasil edib və Paşinyan da narahat idi ki, bu cür nəticə səsvermənin yekununa təsir edə bilər.

Yəni KTMT-yə yeni baş katib məsələsində fiaskonu artıq Ermənistanın yeni hökumətinin ayağına yazmaq olar. Qalır məsələnin sırf formal tərəfi. Seçkilər arxada qaldığından, N.Paşinyana indi KTMT-dəki sərt reallıqla, anti-Ermənistan mövqeyi ilə barışmaqdan savayı yol qalmır. Nəzərə alsaq ki, o, Ermənistanı "Rus NATO-su"ndan çıxarmağa hazırlaşmır, o zaman ayrı yol da görünmür.

*****

Beləliklə, Ermənistanın "Rus NATO-su"nda təklənməsi "faktura" şəklini almaqdadır. 4 paytaxt - Moskva, Minsk, Astana və Düşənbə belaruslu generalı müdafiə eləməklə əslində Azərbaycana dəstək verib (Qırğızıstan da şübhəsiz ki, bu namizədliyin lehinədir). Ermənistan veto hüququna malik olsa da, çətin ki, KTMT-dəki belə bir aparıcı iradənin əleyhinə getsin. Yəni Paşinyanın da "Bakının adamı"na səs verməkdən savayı yolu qalmır.

**Bu xüsusda belaruslu politoloq, təhlükəsizlik sahəsində mütəxəssis, Rusiya Hərbi Elmlər Akademiyasının professoru Aleksandr Tixanskinin fikirləri maraq doğurur. "Yeni Müsavat"ın məlumatına görə, politoloq hesab edir ki, KTMT bloku üzrə Ermənistan xaric, bütün müttəfiqlər arasında baş katibliyin Belarusa keçməsi haqda artıq anlaşma əldə olunub. Onun sözlərinə görə, İrəvanın bu postu özündə saxlamaq yönündə cəhdlərinin səbəbi sırf Nikol Paşinyanın şəxsi ambisiyaları ilə bağlıdır.**

"Paşinyan KTMT-də öz ölkəsinin kvotosundan danışarkən bu təşkilatın nüfuzu haqda fikirləşmir, yalnız özünün daxili siyasət qayğılarını düşünür. Xarici siyasəti daxili siyasətlə qarışıq salır", - deyə o bildirib. Onun sözlərinə görə, blok üzvləri qarşısında Azərbaycanın statusunu həll eləmək məsələsi durur: "Blokun, demək olar, bütün üzvləri Azərbaycanı təşkilatda ya tərəfdaş, ya da müşahidəçi qismində görmək istəyir. Belə görünür, təşkilatda konsensus prosedurunu ləğv etmək və sırf səsvermə üsuluna keçmək lazım gələcək ki, yalnız bir üzv-dövlətə görə (Ermənistan - "YM") qurumun fəaliyyəti tormozlanmasın. Ancaq bunu artıq biz gələn il görəcəyik".

**Ekspertin fikrincə, o halda Azərbaycan bir sıra üstünlüklər əldə edə bilər.** "Xüsusən də hərbi-texniki sferada. Yeni Azərbaycan hətta müşahidəçi statusunda silahları bazar qiymətinə deyil, daxili bazar qiymətinə ala bilər", - deyə o, əlavə edib.

*****

Xatırladaq ki, Azərbaycan vaxtilə bu təşkilatın üzvü də olub (1994-1999). O vaxt o, "Kollektiv Təhlükəsizlik Müqaviləsi" adlanırdı. Lakin Azərbaycan qurumu tərk eləsə də Ermənistan istisna olmaqla, üzv ölkələrin hamısı ilə isti münasibətlərini indi də uğurla davam etdirir. Bu münasibətlər hətta daha da sıxlaşıb.

Məsələn, Rusiya Azərbaycanın əsas silah tədarükçüsüdür. Belarusla hərbi-texniki əməkdaşlığımız da yüksələn xətlə davam edir. "İsgəndər M"-lərə alternativ sayılan "Polonoz" raket kompleksləri ilə bağlı anlaşma buna sübutdur. Habelə, türkdilli dövlətlər kimi Qazaxıstan və Qırğızıstan Azərbaycanın etibarlı dost-müttəfiqləri sırasındadır.

Təsadüfi deyil ki, KTMT-nin "erməni yaraları"na məlhəm olmayacağı haqda İrəvandan zaman-zaman gileylər səslənib. 2016-cı ilin "4 günlük" aprel müharibəsində işğalçı ölkə buna bir daha, bu dəfə əyani şahidlik elədi. KTMT üzvü ölkələrindən heç biri həmin hadisələr zamanı Ermənistanın mövqeyini, yanaşmasını bölüşmədi, ona hər hansı şəkildə dəstək olmadı, Azərbaycan əleyhinə bəyanat səsləndirmədi. Ermənistan aprel savaşında, faktiki, təkləndi. Kim bilir, Rusiya lideri Putin şəxsən azərbaycanlı həmkarı İlham Əliyevdən əməliyyatları dayandırmağı rica etməsəydi, daha nə qədər torpaqlar azad ediləcəkdi...

*****

Doğrudur, işğalçı ölkənin əsas varlıq qarantı Rusiya olaraq qalır. Ermənistan adlı formal dövlət yaranandan onun Türkiyə və İranla sərhədlərini belə, rus hərbçiləri qoruyur. İllərdir Moskva Azərbaycana qarşı duruş gətirmək üçün Ermənistana silahları ən ucuz, daxili qiymətlərə satır. Üstəlik, silahları ən aşağı faizlə və uzun müddətə özünün ayırdığı kredit qarşılığında verir. Bununla belə, nankor ermənilərin ruslardan narazılığı bitib tükənmir - xüsusən də 8 may "məxməri inqilabı"ndan sonra.

**"Xoşagəlməz və yersiz olsa da, Batka (Belarus prezidenti Aleksandr Likaşenko - "YM" ) haqlıdır. Əgər biz KTMT-də nəsə demək istəyiriksə, öz sözümüzü ilk növbədə əsas müttəfiqimiz, Azərbaycana silah satan Rusiyaya yönəltməliyik". Bu sözləri özünün facebook səhifəsində Ermənistanın Respublika Partiyasının sədri Aram Sərkisyan paylaşıb.**

"Mənim fikrimcə, danışmaq yersizdir. Biz, sadəcə, səssiz, addım-addım NATO ilə əməkdaşlığımızı aktivləşdirməliyik və o zaman bizə münasibət birmənalı şəkildə dəyişəcək. Əminəm ki, bizə Rusiyanın lazım olduğundan daha çox biz Rusiyaya lazımıq. Əks təqdirdə, Rusiyanın sərhədləri Krasnodar vilayətindən keçəcək", - deyə o bildirib.

Rusiyanın sərhədi ola bilsin, Krasnodardan keçəcək. Bəs Rusiya arxasından çəkilərsə, Ermənistanın öz sərhədləri haradan keçəcək? Ümumiyyətlə, Ermənistan adında dövlət qalacaqmı?..

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

**ABŞ Senatı Earle D.Litsenbergerin Azərbaycana səfir postuna namizədliyini təsdiqləyib. Onu bu vəzifəyə prezident Donald Tramp irəli sürmüşdü. İndiyədək Litzenberger Birləşmiş Ştatların Serbiyada, Qırğızıstandakı səfirliklərində, eləcə də ABŞ-ın NATO missiyasında çalışıb. O, hazırda Dövlət Departamentində hərbi-siyasi məsələlər üzrə büroda aparıcı məsləhətçidir. Yeni səfirin fransız, rus, serb-xorvat və bolqar dillərini bildiyi xəbər verilir.**

# "Bakı ABŞ səfirinin kimliyindən narahat deyil"

## Zahid Oruc: "Biz çox arzulayırıq ki, yeni səfir bölgədəki mühüm problemlərin çözümü üçün özündən yuxarı instansiyalara çox əhəmiyyətli sorğular, müraciətlər, təkliflər göndərsin"



Maraqlı olan prezident Trampın Azərbaycana səfir göndərdiyi şəxslə bağlı məqamlardır. Litsenbergerin rəhbərlik etdiyi Hərbi-Siyasi Məsələlər üzrə Büro ABŞ Dövlət Departamentinin ürəyi sayılır. O, ən çətin bölgələrdə-Əfqanıstan, Serbiya, Qırğızıstan, Qazaxıstan, Bolqarıstan və Əlcəzairdə diplomatik xidmətdə olub. Kifayət qədər təcrübəli diplomat olan Litsenberger hərbi-təhlükəsizlik sahəsinin təcrübəli mütəxəssisidir. Bir müddət o, ABŞ dövlət katibinin I müavini səlahiyyətini də icra edib. ABŞ mediası bir müddət əvvəl onun prezidentin hərbi-siyasi məsələlər üzrə müşaviri və ya NATO-da ABŞ nümayəndəliyinin rəhbəri təyin ediləcəyi barədə məlumatlar yaymışdı. Ekspertlər hesab edir ki, hərbi-təhlükəsizlik üzrə peşəkar diplomatın Azərbaycana səfir göndərilməsi Azərbaycanla ABŞ arasında hərbi-təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirəcək.

Bir sıra politoloqlar və bəzi müxalifətçilər isə iddialar irəli sürürlər ki, belə bir diplomatın Azərbaycana səfir təyinatı o deməkdir ki, ABŞ-ın Cənubi Qafqaza diqqəti qarşıdakı dönəmdə daha da artacaq, eyni zamanda hakimiyyətdən ciddi tələbləri olacaq.

**Milli Məclisin təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın səfir məsələsi ilə bağlı ötən illərdə davranışları bir qədər təəccüb doğururdu. Çünki Metyu Brayzanın cəmi bir illik səfir dönəmi, ardınca digər təyinatlarda tutulan mövqelər sübut eladi ki, sanki Cənubi Qafqaz regionuna ötən 10 illərdə verilən əhəmiyyət bir qədər azalıb:** "Yəni əvvəlki zamanlarda biz onun şahidiydik ki, fəal bir şəkildə regionun arxitekturasında ABŞ iştirak edirdi. Bu, iqtisadi layihələrdə özünün əksini tapırdı, ardınca bölgənin təhlükəsizliyinə münasibətdə hər bir tədbir, hər bir beynəlxalq işlər məhz onların yardımından keçirdi. Ağ Evin qərar vermədiyi məsələlərdə bölgədə balans pozulurdu. Ancaq 2008-ci ildən biz onun şahidi olduq ki, sanki o proses bir qədər söndü. Amma vaxtilə ABŞ səfirlərinin regiondakı proseslərə aktiv qatqısı var idi. Onların da hamısını cəmiyyət, siyasi elita yaxından tanıyırdı. İndi istər neft sektorunun adamı, istər ictimai sferadan olsun, yaxud da hərbi-təhlükəsizlik mütəxəssisi olsun, bütün bunların anlamı əvvəlki kimi qəbul oluna bilmir".

**Z.Oruc qeyd etdi ki, reallıqda bu gün ABŞ-ın bir neçə ölkədə səfirləri təyin olunmamış qalmaqdadır. Artıq Azərbaycana və Ermənistana səfirlərin göndərilməsi tam reallaşmaq üzrədir. Azərbaycana təyin olunan səfirin Marşal Mərkəzi və digər bu cür təhlükəsizlik araşdırmaları sektorundan olması ona inam yaradır ki, bölgə həqiqətlərini bilməsi ona diplomatik yazışmalarında bu sahəyə önəm verəcəyinə imkan yaradacaq:** "Həqiqətən də mən çox yaxşı xatırlayıram, ABŞ-a səfirlikdən 2003-2004-cü illərdə göndərilən məlumatlarda deyilirdi ki, biz birinci yerə təhlükəsizlik məsələlərini qoyuruq. Sonrakı illərdə demokratiyanı bir qədər irəliyə çıxardılar və bu da müxtəlif sferalarda münasibətlərə də zərbə vurmuş oldu. Vikileaks materiallarını da izləyəndə biz görürük ki, diplomatik kanallarla ötürülən məlumatlara əsasən nəyə vurğu edilib, hansı məsələlər qabardılıb. Biz çox arzulayırıq ki, yeni səfir bölgədəki mühüm problemlərin çözümü üçün özündən yuxarı instansiyalara çox əhəmiyyətli sorğular, müraciətlər, təkliflər göndərsin. Buna ehtiyac var. Amerika Qarabağ məsələsində ən azı son 8-9 ildə hansı yeni bir təklif irəli sürüb? Görüşlərin keçirilməsində, onların addımları nə dərəcədə irəli olub. Rusiyadan və Fransadan fərqli onlar hansı xətti yürüdüblər. Məsələn, Donald Trampın axırıncı müraciətlərində çox nikbinlik doğuran notlar var idi ki, Qarabağ məsələsinin həlli üçün fürsətlər açılıb. Nəyin nəzərdə tutulduğunu biz bilmək istəyirik. ABŞ prezidenti Ermənistan prezidentinə işğal olunmuş Azərbaycan rayonlarından geri çəkilmələrini, orada təhlükəsizliyə ABŞ-ın təminat verəcəyini deyibmi? Bu mövqeni ortaya qoysalar necə olar? Bütün bu məsələlərin reallaşması həm də buradakı səfirdən asılıdır. Müvəqqəti işlər vəkili rankı ilə münasibətləri aşağı statusa endirməklə nəyəsə nail olmaq mümkün deyil. Biz ümid edək ki, fəaliyyətə başlayacaq səfirin fəaliyyətində qeyd olunan gözləntilərimiz həyata keçəcək. Əks halda, ABŞ bölgədə yerini Rusiyaya, İrana və başqa ölkələrə vermiş olacaq ki, bunun da zərərini Vaşinqton görəcək".

**Deputat vurğuladı ki, hərbi-təhlükəsizlik məsələləri sahəsinin mütəxəssisi olan diplomatın səfir göndərilməsindən rəsmi Bakı qətiyyən narahat olmaz:** "Heç bir narahatçılığa əsas yoxdur. Hökumət Azərbaycanın qanunlarını, Konstitusiyasını tanıyan, ölkənin iç işlərinə qarışmayan, tərəf tutmayan, hansısa siyasi qüvvənin iqtidar uğrunda mübarizəsində ptronajlıq, siyasi maliyyə himayədarlığı etməyən, Vyana Konvensiyasının prinsiplərini ödəyən səfirlərlə çalışıb. İnanırıq ki, qarşıdakı dönəmdə də belə olacaq. Səfir gəlsin fəaliyyətə başlasın, addımlar atsın və nəticəsini də görək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Paşinyan hələ də təbrik gözləyir, biz isə...



**Hüseynbala SƏLİMOV**

**Həqiqətən də gülməli vəziyyətdir. Neçə ilin cinayət ortaqlığı (məni bağışlayın, Rusiyanın on illərlə Ermənistanla birlikdə Cənubi Qafqazda apardığı siyasəti başqa cür adlandıra bilmirəm!), müttəfiqlik, daha nələr və nələr, bir təbrikə belə dəymədi.**

Amma təsadüf-filan da yoxdur. Artıq tamamilə mübahisəsizdir ki, Ermənistanda Rusiyanınkı sayılmayan bir siyasi qüvvə hakimiyyətə gəlib. Üstəlik, təbrik əvəzinə Kremlin politoloq S.Markovun dililə göndərdiyi ismarış da çox maraqlı idi: "Biz Rusiya yönmülü adamları hətta Paşinyanın yaxın çevrəsindən tapacağıq!".

Bu isə o deməkdir ki, Kremlin dizini yerə qoymaq fikri yoxdur - hələ bir gör, nələr və nələr olacaq, çünki Paşinyana qarşı təkcə Kremlin özü deyil, demək olar ki, cəmi MDB liderləri səfərbər olublar və qocalarımız demişkən, oğul istərəm ki, belə fürsətdən faydalansın...

Bu arada Belarus prezidenti də Rusiya jurnalistlərilə görüşdə bir xeyli maraqlı fikirlər səsləndirdi.

Fəqət, müəyyən suallar da yaranır. Birincisi budur ki, doğrudanmı MDB liderləri hələ də Ermənistan hökumətinin Dağlıq Qarabağla, xüsusilə də işğal altında olan beş rayonla bağlı məramını bilməyirlər?

Beş işğal altında olan rayonun ermənilərin nəzərində rolu və yaxud missiyası nədən ibarətdir? Doğrudanmı bu liderlər Ermənistanla hansı dildə danışmaq lazım gəldiyinin fərqində deyillər və indiyədək başa düşmürlər ki, "Serj və ya Nikol, beş rayonu qaytar!" deməklə rayonlar geri qaytarılmayacaq...

İşğal altında olan beş kənar rayon Ermənistanın Dağlıq Qarabağla bağlı planlarının girovudur, hamı gözəl anlayır ki, həmin rayonlar diplomatik "torq" predmetidir. Ermənilər heç də ondan ehtiyat etmirlər ki, həmin o rayonları qaytarsalar Azərbaycan hansısa yolu kəsəcək, daha çox ondan qorxurlar ki, Dağlıq Qarabağa müstəqillik tələb etmək üçün əllərində bir qeyri kəsərli təzyiq vasitəsi olmayacaq - bəli, onlar bundan qorxurlar, axı hamıya aydındır ki, daha beş rayonun işğalda olması Bakının mövqeyini xeyli dərəcədə zəiflədir.

Odur ki, qoy, MDB liderləri erməni hakimiyyətinin Dağlıq Qarabağla bağlı planlarını özləri üçün aydınlaşdırmağa çalışsınlar və bir daha sözdə dəstək verdikləri məsələyə - Azərbaycanın ərazi bütünlüyü məsələsinə ermənilərin də real münasibətini öyrənsinlər; aydınlaşdırsınlar ki, İrəvan üçün həmin məsələ hansısa önəm kəsb edirmi?

Daha bir məqamsa budur ki, konfliktologiya ilə bağlı dərsliklərdə belə təcavüzkarı sülhə məcbur etməkdən söhbət gedir. Elə bu səbəbdən də "Serj və ya Nikol, beş rayonu Azərbaycana qaytar" kimi minnət-xahişlə erməni rayon qaytaran deyil.

Demirik, bunları MDB liderləri bilmir, yox, yetərincə təcrübəli insanlardır onlar, sadəcə, prosesin sonrakı mərhələləri, Dağlıq Qarabağın sonrakı taleyi onların özü üçün də qaranlıqdır, çünki bu məsələdə üç ssenari var: Bakının baxışı, İrəvanın planları və Rusiyanın niyyətləri.

Ona görə erməni rəhbərlərinə yetərincə təzyiq göstərə bilmirlər, çünki Qarabağ probleminin həllinə yalnız hansısa mərhələyə qədər start verməK olar. Sonra isə Moskvanın ssenariləri başlamalıdır; bölgəyə Rusiya sülhməramlıları gəlməlidir ki, Dağlıq Qarabağ bundan sonra da onun nəzarətində qalsın və yalnız Kreml tamam əmin olduqdan sonra ki, artıq Azərbaycan onun əlindədir, bundan sonra Dağlıq Qarabağ formal olaraq Azərbaycana "qaytarıla" bilər.

Yeri gəlmişkən, A.Lukaşenkonun açıqlamalarında maraqlı bir detal da sezildi. Belarus prezidenti dedi ki, Serj Sarkisyan beş rayonu qaytarsaydı Azərbaycan da Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olacaqdı...

Bu haqda da çox söhbətlər gəzirdi və indi də davam edir. Bizim bəzi siyasət adamları (onların arasında hətta keçmiş "milli müxalifətçilər" də var!) hey israr edirlər ki, guya ki, Rusiyayla yetərincə bazarlaşa bilmirik.

"Bazarlaşma" deyəndə də məhz bunu nəzərdə tuturlar ki, Rusiya Dağlıq Qarabağı bizə "qaytarır" və biz də bunun müqabilində onun bütün "meqa-layihə"lərinin iştirakçısı oluruq - Avrasiya İqtisadi Birliyinə və KTMT -na qoşuluruq...

Bir daha deyirik ki, belə ehtimallar son il yarımda xeyli səslənib və şəxsən bizim ona münasibətimiz bəllidir: nəyinsə hissəsini geri almaq üçün onu tam şəkildə kiməsə hədiyyə etmirlər. Dağlıq Qarabağ bizim üçün müstəqil Azərbaycanın bir hissəsidir və müstəqil Azərbaycanın da hissəsi kimi də qaytarılmalıdır...

İndi Paşinyanla bağlı konkret söz demək olduqca çətindir. Amma bütün hallarda situasiya fərqli olacaq. Əsas odur ki, əsl məqamında fürsəti tuta bilək - siyasətdə buna da çox önəm verilir...

YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

**Noyabrın 28-də Gürcüstanda keçirilən prezident seçkilərinin ikinci turundan sonra yaranan gərginlik səngimək bilmir. Dekabrın 16-dan etibarən seçkilərin nəticələrini tanımayan sabiq prezident Mixail Saakaşvilinin qurucusu olduğu Vahid Milli Hərəkat Partiyası növbəti aksiyalara start verib.**

# Gürcüstanda vəziyyət gərginləşir - yeni prezidentin başı dərddə...

## Şahin Cəfərli: "Gürcüstanda hakimiyyətdən narazılıq üçün səbəblər yetərincədir, amma..."

Etirazlar yeni prezident Salome Zurabişvilinin andiçmə gününə təsadüf edib. "Report"un yerli bürosunun verdiyi xəbərə görə, aksiya iştirakçıları bir daha Salome Zurabişvilini Gürcüstan prezidenti kimi tanımadıqlarını bildiriblər. Aksiya iştirakçıları parlament binası qarşısında çadırlar qurublar.

Qeyd edək ki, bundan öncə VMHP-nin lideri, Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili tərəfdarlarına müraciət edərək, onları Tiflisin Rustaveli prospektinə toplaşmağa çağırıb.

Ekspertlər Gürcüstanda seçkilərdən sonrakı durumun ürəkaçan olmadığını bildirirlər. Gərginliyin yüksələn xətlə inkişaf edəcəyi ehtimal edilir.

**Politoloq Şahin Cəfərli qonşu ölkədə yeni mərhələnin başlandığını düşünür:** "Gürcüstanda prezident seçkilərindən sonra yeni bir siyasi mərhələnin başlandığını söyləyə bilərik. Hazırda yaranmış gərginlik və Qriqol Vaşadzeni dəstəkləyən "Güc birlikdədir" blokunun etiraz aksiyaları da məhz bu yeni mərhələ ilə əlaqədardır. Bunu birləşmiş müxalifətin irəli sürdüyü və digər müxaliflər tərəfindən dəstəklənən tələblərə nəzər saldıqda asanlıqla anlamaq olur. Onlar növbədənkənar parlament seçkilərinin keçirilməsini, seçki sisteminin və Seçki Administrasiyasının (MSK) dəyişməsini tələb edirlər. Yəni ötən prezident seçkiləri ilə bağlı hər hansı tələb yoxdur. Mən bunu çox düzgün taktika sayıram, çünki keçmişdə ilişib qalmaqla müxalifət heç nə əldə etməz, əksinə, itirər. Prezident artıq yeni qüvvəyə minən konstitusiya dəyişiklikləri nəticəsində tamamilə simvolik bir fiqura çevrilib, ölkədə tam parlament üsul-idarəsi bərqərar olub. Ona görə də əsas məsələ məhz parlament seçkilərində qalib gəlməkdir, hakimiyyət dəyişikliyi, sadəcə, bu yolla baş verə bilər. Bu səbəblə müxalifət indi bütün gücünü qarşıdakı parlament seçkiləri öncəsi əlverişli start vəziyyəti qazanmağa yönəldib. Növbədənkənar seçki tələbi böyük ehtimalla reallaşmayacaq, zatən seçkiyə az müddət - cəmi 2 il qalır, bu isə o deməkdir ki, 1,5 il sonra seçki kampaniyası başlayacaq. Belə olan halda, erkən seçki tələbi məntiqli görünmür. Amma seçki sisteminin dəyişdirilməsi çox zəruri, hətta müxalifət üçün həyati məsələdir. Çünki hazırkı yarı majoritar, yarı proporsional sistem iqtidardakı qüvvə üçün sərfəlidir. Sirr deyil ki, birmandatlı dairələrdə hakimiyyət namizədləri qələbəyə daha yaxın olurlar, çünki inzibati resurslardan, dövlət gücündən gen-bol faydalanırlar. Hətta çox vaxt seçki günü saxtakarlığa ehtiyac qalmır, yerli iqtidar sahibləri seçiciləri pul, ərzaq yardımı və digər üsullarla ələ alıb, seçkinin taleyini seçkidən əvvəl həll edirlər. Ona görə də müxalifət tələb edir ki, qarşıdakı seçkilər tam proporsional sistem üzrə keçirilsin. Əslində konstitusiya dəyişikliyinə əsasən Gürcüstan məhz bu sistemə keçib, lakin bu dəyişiklik 2024-cü ildən qüvvəyə minəcək. Müxalifət istə bildirir ki, bu qədər gözləmək məntiqsizdir və yeni sistemi qarşıdakı seçkidən etibarən tətbiq etmək lazımdır. Yəni hazırda mübahisə, mübarizə məhz bu məsələ ilə bağlıdır. "Gürcü Arzusu" güzəştə getmək istəmir, çünki tam proporsional seçkidə təkbaşına qələbə şansının olmadığını bilir. Gürcüstanda hakimiyyətdən narazılıq üçün səbəblər yetərincədir, amma inqilab üçün əsas yoxdur".



**Politoloq Gürcüstanda etirazçıların qurduğu çadırların simvolik xarakter daşıdığını da qeyd etdi:** "Mən müxalifətin inqilab etmək kimi bir hədəfi qarşıya qoyduğuna inanmıram və bunun üçün kifayət qədər resursa malik olduğuna şübhəm var. Rustaveli prospektində qurulan çadırlar daha çox simvolik xarakter daşıyır, ötən gecə orada cəmi 10 nəfər qalıb. Müxalifət, sadəcə, iqtidara təzyiqi artırır ki, parlament seçkilərinin daha demokratik və bərabər rəqabət şəraitində keçirilməsinə nail olsun. Çünki bu halda, ölkədə seçki yolu ilə hakimiyyət dəyişikliyinin baş verməsi realdır. Gürcüstanda sərbəst toplaşma azadlığı təmin olunur. Müxalifət paytaxtın mərkəzi küçə və prospektlərində aksiya keçirə bilir, bunun üçün hər hansı manеə yoxdur. Birləşmiş müxalifətin son qərarına görə, etirazlar permanent, yəni fasiləsiz olacaq. Bu qərar problemi həm ölkə ictimaiyyətinin, həm də Gürcüstan daxili siyasətinə real təsir imkanları olan Qərb çevrələrinin diqqətinə çatdırmaq, onlardan dəstək almaq baxımından doğru qərardır. Aksiyalar qanun çərçivəsində davam etdiyi müddətdə hakimiyyətin müdaxiləsi olmayacaq. Müdaxilə o zaman ola bilər ki, nəqliyyatın hərəkətinə əngəl yaradılsın, şəhər həyatı, dövlət orqanlarının fəaliyyəti iflic edilsin, ictimai asayişə təhlükə törədilsin və s... Hələlik belə hallar yoxdur və bu cür aksiyalar hakimiyyət üçün təhdid yaratmır. Eyni zamanda aksiyalar hələ ki çoxsaylı deyil. Yəni "Gürcü Arzusu"nu qorxudacaq səviyyədə bir xalq hərəkatı müşahidə olunmur".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# ABŞ Güləni Türkiyəyə verəcəkmi....

## Ankara növbəti dəfə "topu" Vaşinqtona ötürüb

**ABŞ prezidenti Donald Tramp Fətullah Gülənin Türkiyəyə verilməsi məsələsini nəzərdən keçirir. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ABŞ mediasına bildirib ki, bu barədə prezident Tramp G-20 sammitində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana məlumat verib.**

Çavuşoğlu Qətərdə keçirilən 18-ci Doha Konfransında çıxışı zamanı Gülənin geri qaytarılması məsələsinə toxunub və bildirib ki, Tramp Argentinada Ərdoğana Gülən və daha bir neçə nəfərin ekstradisiya ediləcəyini deyib. Eyni zamanda əlavə edib ki, bir qədər öncə Federal Təhqiqatlar Bürosu (FTB) Gülən təşkilatının vergidən yayınması mövzusunda istintaq başlatdığını görüb.

Qeyd edək ki, 1999-cu ildən ABŞ-da yaşayan Fətullah Gülənin geri qaytarılması ilə bağlı Türkiyə hökuməti 2016-cı ilin yayında - 15 iyul qiyamından sonra - ABŞ hökumətinə rəsmən müraciət edib. Ancaq Vaşinqton hazırda mövzusunun araşdırıldığı, dəlillərin yetərli olub-olmadığının analiz edildiyini bəyan edib. ABŞ faktiki olaraq indiyədək Türkiyənin bu tələbini rədd edib.



Lakin rəsmi Ankara Vaşinqtona təsir edərək Gülənin geri göndərilməsinə nail olmağa çalışır. Prezident Rəcəb Tayyib Ərdoğan bir neçə dəfə, o cümlədən ən son Argentinada keçirilən G-20 sammitində Gülən məsələsini müzakirə edib. Ancaq belə görünür ki, tərəflər arasında bu mövzuda ortaq fikir yoxdur. Çünki həmin vaxt mediada Trampın Türkiyənin Səudiyyə Ərəbistanı üzərindəki təzyiqi yumşaltmaq üçün Fətullah Gülənin Türkiyəyə qaytarılması haqda düşündüyünü yazmışdı. Amma daha sonra Tramp bu iddiaları təkzib etmişdi. Eyni zamanda rəsmi Vaşinqton Ərdoğan-Tramp danışıqlarında belə bir mövzunun müzakirə olunmadığını bəyan etdi.

Buna rəğmən ABŞ mediası, o cümlədən "NBC News" telekanalı Trampın məhz Qaşıqçı işində Ərəbistan hakimiyyəti və ABŞ hökumətinə təzyiqləri azaltmaq üçün Güləni Türkiyəyə və ya 3-cü bir ölkəyə - ehtimallara görə Cənubi Afrika Respublikasına - göndərməyi düşündüyü haqda xəbər yaymışdı. Məsələ ondadır ki, Qaşıqçı cinayəti Türkiyədə baş verib və qətllə bağlı detallı bilgilər rəsmi Ankaranın əlindədir. Türkiyə hökuməti isə Səudiyyə Ərəbistanının ipə-sapa yatmaz şahzadəsi Məhəmməd bin Salmanı cəzalandırmaq və eləcə də hadisədə əli olan rəsmilərin məsuliyyətə cəlb olunması üçün təzyiq edir.

Lakin məlum olduğu kimi, Vaşinqton administrasiyası hazırda Qaşıqçı işində əsas tərəf kimi ittiham olunan vəliəhd-şahzadəni müdafiə edir. Bu səbəbdən də telekanalın ortaya atdığı informasiya xeyli dərəcədə maraq doğurub. Bütün bunlara baxmayaraq Gülənin ABŞ-a verilməsi bir sıra səbəblərə görə şübhə ilə qarşılanır.

Qeyd edək ki, ABŞ və Türkiyə arasında 1979-cu ildə imzalanmış anlaşmaya əsasən, tərəflər tələb etdikləri şəxsləri almaları üçün tələb olunan (yəni Gülən - K.R) şəxsin cinayətini "şübhəyə yer qoymayacaq" bir şəkildə sübut edəcək faktlar təqdim etdiyi təqdirdə mümkün ola bilər. İndi şərtlərdə, yəni konkret Gülənin geri qaytarılması məsələsində Türkiyənin bu cür konkret sübut - yəni ən azı Vaşinqtonu qane edəcək dərəcədə - təqdim etməsi isə inandırıcı deyil. Çünki bəlli olduğu kimi, "camaat" xeyli dərəcədə qapalı olub və fəaliyyətlərində hansısa əmrin birbaşa Gülən tərəfindən verildiyi və ya cinayətdə onun iştirak etdiyini sübut edən bariz dəlillərin əldə olunması çox çətindir. Yəni təqdim olunan dəlillərin ABŞ Ədliyyə Nazirliyini razı salacağı indidən şübhə doğurur.

Hətta bütün bunlar olsa və Türkiyə istintaqı amerikalıları qane edəcək sübutları təqdim etsə belə, bu, Gülənin Türkiyəyə verilməsi anlamına gəlmir. Çünki məsələ ondadır ki, hazırkı hüquqi prosedura əsasən ölkə daxilində hüquqi proseslərdən müsbət nəticə aldıqdan sonra geri verilmə sənədi Dövlət Departamentinə, dövlət katibinin qarşısına gəlir. Son qərarı isə siyasi rəhbərlik, yəni dövlət rəhbərliyi ilə razılaşdırdıqdan sonra dövlət katibi verir. İndiki halda fərz olunsa ki, bütün sənədlər yetərlidir, son qərarı verəcək olan dövlət katibi "insani məsələləri" əsas götürərək Gülənin geri verilməsindən imtina edə və ya prosesi uzada bilər. Yəni bir mənada Gülənin verilməsi qərarı Amerika ədliyyəsi ilə yanaşı siyasi hakimiyyətinə bağlıdır.

Türkiyə ilə ABŞ münasibətləri elə olmalıdır ki, bu, dövlət katibinin qərarına təsir eləsin. Bu məsələdə qərarı xarici siyasət idarəsi rəhbərinin verməsi işin içində diplomatiya olduğunu göstərir. Məsələn, ABŞ rəhbərliyi bu qənaətə gəlsə ki, Türkiyə hakimiyyəti Fətullah Güləni ədalətli məhkəmədə deyil, siyasi sifarişlə mühakimə etdirəcək, o zaman bu qərar mənfi ola bilər. Üstəlik, bu mövzuda həddən artıq həssas davranan və Tramp administrasiyasına təzyiq edən bürokratik aparat və qeyri-dövlət quruluşlarının Gülənin ekstradisiyasına razılıq verəcəyi inandırıcı deyil.

Və nəhayət, hazırda siyasi mənada Türkiyə-ABŞ münasibətləri xeyli dərəcədə gərgindir, üstəlik, ABŞ ədliyyəsi Türkiyədə məhkəmə və prokurorluq sisteminə şübhəli yanaşır. Ya da ən azı belə bir görüntü var. Bu isə o deməkdir ki, Gülənin geri qaytarılması Türkiyə istintaqının işi ilə yanaşı, diplomatiya və siyasi rəhbərliyindən asılıdır. Suriya mövzusunda da Vaşinqton və Ankara arasında dərin böhran var və indi hansısa rahat anlaşmadan danışmaq mümkün deyil.

İki ölkə münasibətlərinin hazırkı durumu, Qərbdə Türkiyəyə qarşı münasibət və nəhayət, F.Gülənin Qərbdə, xüsusən də ABŞ-dakı yeri və əlaqələri onun Türkiyəyə geri verilməsini hardasa mümkünsüz edir. Digər tərəfdən, Gülənin Qərbə bağlı olması, yaxın əməkdaşlıq etməsi onun geri qaytarılmasını mümkünsüz edir. Amerika isə uzun illər əməkdaşlıq etdiyi müttəfiqini rahat şəkildə geri qaytarmaz.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018



# Azərbaycanın sərhəd boyunca atdığı addım Ermənistanı təşvişə saldı

## İşğalçı ölkədə Qazax və Ağstafa istiqamətindəki ordu hissələrimizin sərhəd qoşunları ilə əvəzlənməsinin sirrini çözməyə çalışırlar; **erməni general:** "Burada yaxşı məqsəd dayanmır"; **Şair Ramaldanov:** "Bizim yumruğumuz daha da böyüyəcək..."

**Ötən həftə Azərbaycanın sərhəd qoşunlarının Ermənistanla sərhədin Qazax və Ağstafa istiqamətindən keçən hissəsində yerləşdirilməsi Ermənistanda ciddi təlaş yaradıb. Bunu erməni mediasının məsələni gündəmdə saxlaması və müxtəlif səviyyəli Ermənistan nümayəndələrinin məsələyə reaksiyası da sübut edir.**



Qeyd edək ki, Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bu barədə ilk dəfə açıqlama verib. O bildirib ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə sərhədin bu istiqamətindəki döyüş postları sərhəd qoşunlarına təhvil verilib. Müdafiə Nazirliyinin bölmələri isə daha intensiv təlim-məşq hazırlığı və ehtiyat qüvvələrin yaradılması məqsədilə geri çəkilib.

Öz növbəsində Müdafiə Nazirliyi bu məsələ ilə bağlı bildirib ki, sərhədin Qazax və Ağstafa istiqamətlərindən keçən hissəsində erməni mövqelərindən 2 kilometrə qədər aralıda yerləşən, vəziyyətin nisbətən sabit olduğu postlar sərhəd qoşunlarının bölmələrinə təhvil verilib. Həmin postlara Müdafiə Nazirliyinin bölmələri ağır texnika və silahlarla dəstək verir. Düşmənlə bilavasitə təmas xəttindəki postlar isə ordunun nəzarətindədir.

**"Azərbaycan Ermənistanla sərhədin bu strateji əhəmiyyətli istiqamətində müdafiəni zəiflədən deyil". Virtualaz.org xəbər verir ki, bu sözləri Ermənistanın sərhəd qoşunlarının keçmiş komandanı, general-mayor Levon Stepanyan Azərbaycanın Qazax və Ağstafa istiqamətində qoşunların təmas xəttinə sərhəd qoşunlarını yerləşdirməsi barədə xəbərləri şərh edərkən deyib.**

"Azərbaycan və Ermənistan sərhədinin sovet vaxtından bəri dəyişməz qalan hissəsində hər iki tərəfdən sərhəd qoşunlarının yerləşdirilməsi mənim tərəfimdən hələ 1996-cı ildə MDB sərhəd qoşunları komandanları Şurasının o vaxtkı sədri, Rusiyanın ordu generalı Andrey Nikolayevlə müzakirə olunub. Məqsəd hər iki tərəfin dövlət başçılarına 90-cı illərin əvvəllərindən sərhədin dəyişməz qaldığı sahələrdə gərginliyin azaldılması üçün variant kimi bu təklifi təqdim etmək idi" - Stepanyan deyib. Onun sözlərinə görə, həmin variant pis deyildi. Xüsusən nəzərə alanda ki, sərhəd qoşunlarının əsas təyinatı sərhədlərin mühafizəsi və müdafiəsidir, hücum əməliyyatları aparmaq deyil. Ona görə də əgər qərar hər iki tərəfdə müddət barədə ilkin razılaşma əldə olunmaqla qəbul edilsəydi bunu sülhün dəstəklənməsinə yönəlmiş addım hesab etmək olardı. "Bu imkan verərdi ki, bütün bu illərdə sərhəddə baş vermiş insidentlər istisna edilsin. Əminəm ki, faydası çox olacaqdı. İndiki halda mən Azərbaycanın niyyətini başa düşə bilmirəm. Hər şeydən əvvəl ona görə ki, sərhədlərin mühafizəsini birtərəfli qaydada sərhəd qoşunlarına təhvil vermək mümkün olmur, şəxsən mən bunu istisna edirəm"-general Stepanyan bildirib. Erməni generalın sözlərinə görə, sərhədin bir tərəfində ordunu, o biri tərəfində sərhəd qoşunlarını təsəvvür etmək çətindir. Deməli, o biri tərəfdə sərhəd qoşunlarının ancaq adı olacaq, reallıqda isə Azərbaycan ordusu həmin mövqelərində qalacaq.

Erməni general əmindir ki, Azərbaycan sərhəd qoşunlarını həmin mövqelərə qoymaqla sərhədin bu cür strateji istiqamətində müdafiəni zəiflədən deyil. Xüsusən də Azərbaycan tərəfinin bəyanatında deyilir ki, burada məqsəd yeni ehtiyat qüvvələrin formalaşdırılmasıdır. "İstisna etmirəm ki, bu böyük siyasədə "oyun" ola bilər və arxasında nəsə yaxşı məqsəd dayanmır" - o deyib.

Erməni tərəfində yaranmış çaşqınlığı başa düşmək çətin deyil. Amma orada nəzərə almırlar ki, Azərbaycanın sərhəd qoşunları təkcə sərhədlərin mühafizəsi funksiyasını yerinə yetirməyə deyil, eyni zamanda tammiqyaslı döyüş əməliyyatları, o cümlədən hücum əməliyyatları aparmağa imkan verən döyüş qabiliyyətinə və təchizata malikdir. Çünki sərhəd qoşunlarının silahlanmasında tanklardan tutmuş yüngül zirehli döyüş-nəqliyyat maşınlarına, Mi-35 hücum vertolyotlarına, o cümlədən tank əleyhinə raketlərə qədər müasir silah və hərbi texnika var. Bu baxımdan sərhəd qoşunlarının Ermənistanla sərhədin Qazax və Ağstafa istiqamətlərində bəzi postlara yerləşdirilməsi əlbəttə ki, müdafiəni zəiflədə bilməz.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov "Yeni Müsavat"a açıqlamasında Azərbaycan tərəfinin atdığı addımı dəyərləndirdi:** "Biz bilirik ki, Ermənistanın işğalçı qüvvələri ilə təmas xəttimiz var, həmçinin dövlət sərhədimiz mövcuddur. Azərbaycan dəfələrlə bəyan edib ki, heç bir ölkənin torpağında gözü yoxdur. Bizim əsas vəzifəmiz öz torpaqlarımızı işğaldan azad edib ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni məntiqlə, Azərbaycan dövlət sərhədində heç bir əməliyyat aparmağı planlaşdırmır. Hərbi əməliyyat aparılsa, sırf işğal altındakı torpaqlarımızın azad edilməsi üçün həyata keçiriləcək".

**Hərbi ekspert qeyd etdi ki, Qazax və Ağstafa istiqamətinin sərhədçilərə həvalə olunması çox düzgün və müsbət bir addımdır:** "Biz bununla nə əldə edirik? Birincisi, bizim hərbi hisssələrimiz orada yerləşir, "təmas xətti" deyilən ərazi böyunca səpələnib. Amma ora təmas xətti deyil, dövlət sərhədidir. Ancaq dövlət sərhədində nə sərhədə aid funksiyalar yerinə yetirilir, nə də təmas xəttinə aid. Demək olar ki, oradakı hərbi hissələrin bölmələri döyüş hazırlığı və sair məsələləri lazımi şəkildə yerinə yetirə bilmir, çünki təmas xəttində daim döyüş növbətçiliyindədirlər. Deməli, təmas xəttində böyük heyət yerləşir. Ona görə də hərbi qüvvələri geri çəkərək digər ərazidə yerləşdirməklə və onların döyüş qabiliyyətini artırmaqla məşğul olmaq daha vacibdir, nəinki o qüvvələrin təmas xəttində, yaxud sərhədboyu yerləşməsi. Yəni biz döyüş hazırlığı və döyüş qabiliyyətini daha da yüksəltmiş oluruq".

**Ş.Ramaldanov qeyd etdi ki, bu hərbi hissələr oradan tam götürülmür, yenə də dövlət sərhədini lazım olan istiqamətlərdə qoruyurlar. Ekspert qeyd etdi ki, sərhəd qoşunlarının özünəməxsus funksiyaları var:** "Bunlar beynəlxalq normalar çərçivəsində, sərhədin qorunması, xidmətin aparılması ilə bağlı funksiyalardır. Sərhəd xidməti təbii ki, o funksiyaları yerinə yetirəcək. Digər tərəfdən, orada yaşayış məntəqələri var. Nə qədər çox silahlı adamlar və silahlı qarşıdurmalar olsa, o qədər də həmin ərazidəki yerli sakinlərin narahatlığına səbəb olur. Biz də daim bunun şahidi olmuşuq. Burada təhlükəsizlik məsələləri daha çox təmin olunacaq".

**Ş.Ramaldanov məsələnin maddi tərəfinə də diqqət çəkdi:** "Əraziyə səpələnmiş hərbi hissələr məsələnin maddi tərəfinə də təsir edən amildir. Bir var, sərhəd qoşunları özünəməxsus şəkildə sərhədi qoruyurlar. Oraya daimi olaraq heyət, müəyyən qurğular yerləşdirilir, bir də var səngərdə əsgərlər xidmət keçirlər. Ona görə də atılan addım maddi tərəfdən də alverişli sayılır".

**Ekspert onu da qeyd etdi ki, Azərbaycan inkişaf etmiş sərhəd qoşunlarına malikdir:** "Postsovet məkanında bizim sərhəd qoşunlarımız ən irəlidə olan sərhəd xidmətlərindəndir. Bu da Azərbaycanın sərhəd xidmətinin inkişafının göstəricisidir. Həm silah-sursat, həm maddi, həm də xidmət cəhətdən Azərbaycanın sərhəd xidməti çox irəlidədir. Ona görə də Azərbaycanın dövlət sərhədinin sərhəd xidmətinə həvalə olunması yalnız təqdir oluna bilər".

**Şübhə yoxdur ki, ermənilər Azərbaycan ordusunun sərhədboyu yerləşən hissələrinin Qarabağ istiqamətində yerləşdiriləcəyindən ehtiyatlandıqları üçün təşviş keçirirlər. Polkovnik Ramaldanov bu amili mümkün hesab etməklə yanaşı, düşmənin narahatlığını təbii saydı:** "Çünki o boyda qoşun sərhəddən hərbi şəhərciklərə yığılacaq, döyüş qabiliyyətini daha da artıracaq. Bu, böyük bir ehtiyat, nəhəng bir yumruq deməkdir. Hansı ki, sabah əgər Qarabağ məsələsini yenə də güc yolu ilə həll etmək zərurəti yaransa, o halda bu böyük yumruğu düşmənin başına endirəcəyik, torpaqlarımızı azad edib ərazi bütövlüyümüzü təmin edəcəyik. Ona görə də bu addımın çoxsaylı üstünlükləri var. Onu da qeyd edim ki, bizim sərhəd qoşunlarımız da döyüşə hazır vəziyyətdədir, onları Ermənistanın sərhəd qoşunları ilə müqayisə etmək belə mümkün deyil. Bu səbəbdən Ermənistan sərhədini ruslar öz öhdəsinə götürüb. Yəni üçüncü dövlət Ermənistana hücum etsə, ruslar onları qoruyacaqlarına təminat veriblər. Amma hələlik Ermənistanın sərhəd qoşunları inkişaf etməyib. Azərbaycanın sərhəd qoşunları isə həddindən artıq inkişaf etmiş və müasir tələblərə cavab verən qoşunlardır. Ona görə də düşmən narahatdır ki, bizim yumruğumuz daha da böyüyəcək, güclənəcək. Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanı, Azərbaycan prezidenti cənab İlham Əliyevin dediyi kimi, əgər Azərbaycanı və Ermənistanı təkbətək qoysalar, Azərbaycanın Silahlı Qüvvələri işğalçı ordunu darmadağın edib, ərazi bütövlüyümüzü qısa müddətdə bərpa etməyə qadirdir. Həmən o yumruq işğalçı ordunu darmadağın etməyə yönəldiləcək. Ermənistan bundan narahatdır".

**Hərbi ekspert hesab edir ki, Ermənistanla sərhədin sərhəd qoşunlarına həvalə olunması Qazax-Ağstafa ilə bitməyəcək:** "Çünki bizim Tovuz, Gədəbəy rayonlarında, Naxçıvan istiqamətində də sərhədimiz var. Demək olar ki, 400 km-ə qədər sərhəd bu saat təmas xəttinə dönüb və bizim əsgərlər orada xidmət aparırlar".

**Rusiyalı ekspert, Qafqaz və Mərkəzi Asiyanı Araşdırma Mərkəzinin baş elmi əməkdaşı Aleksandr Skakov da demişdi ki, Azərbaycan rəhbərliyinin Ermənistanla sərhədin Qazax və Ağstafa rayonları istiqamətindən keçən hissəsində sərhəd qoşunlarını yerləşdirməsi Ermənistanla münasibətlər baxımından atılmış addımdır. Skakov erməni KİV-lərinə açıqlamasında bildirib ki, bu addım Ermənistanda rəhbərliyin dəyişməsi və müəyyən təmaslar yaratmaq cəhdləri ilə əlaqəlidir.** "Ermənistanda rəhbərliyin dəyişməsi Azərbaycanı buna həvəsləndirib ki, müəyyən qarşı addımlar atsın. Yanaşmalarda kəskin dəyişmə də məhz bununla bağlıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan uzun illər heç bir güzəştə getməyib, o cümlədən Ermənistanla sərhəddən snayperlərin və ağır texnikanın geri çəkilməsi məsələsində. İndi Bakı Yerevandan adekvat addımlar gözləyəcək" - A.Skakov deyib. Ekspertə görə, buna xüsusi fikir vermək lazımdır ki, qərar Ermənistanla sərhəd rayonlarla bağlı qəbul edilib. "Ermənistanla sərhəddə vəziyyətin kəskinləşməsi münaqişəyə Rusiyanın da qarışmasına gətirib çıxara bilər. Bunu Bakıda bilməmiş deyillər" - o əlavə edib. Skakovun fikrincə, ola bilsin Bakı bu addımı tərəfdaş ölkələrlə, o cümlədən Minsk Qrupunun həmsədrləri ilə razılaşdırıb.

Hər halda, seçim Ermənistanındır. Əgər Qarabağ istiqamətindən daha böyük güclə üz-üzə dayanmaq istəmirsə, torpaqların işğalına son qoymalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

# Hacıyevlər məhkəmələrinə necə hazırlaşır

## Cahangir Hacıyev Bakıda, Zamirə Hacıyeva Londonda hakim qarşısına çıxarılacaq





**"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin keçmiş rəhbəri Cahangir Hacıyevin və onun Britaniyada polis nəzarəti altına verilmiş həyat yoldaşı Zamirə Hacıyevanın işi üzrə məhkəmə proseslərinin vaxtı məlum olub. Cahangir Hacıyevə yeni ittihamlar bu ilin əvvəlində verilib. O, bu dəfə keçmiş deputat Dünyamin Xəlilov və daha 18 nəfərlə birlikdə hakim qarşısında dayanacaq. Hazırkı cinayət işi Beynəlxalq Bankın Moskva filialı, xaricdəki kreditlərlə bağlıdır. İş üzrə məhkəmənin növbəti ilin yanvarında olacağı bildirilir. Yada salaq ki, bu ilin yanvarında Cahangir Hacıyevin ən yaxın adamlarından hesab olunan Emin Sadiq qonşu ölkələrdən birində yaxalanıb və Bakıya ekstradisiya olunub. İstintaqın versiyasına görə, E.Sadiq Cahangir Hacıyevin və Beynəlxalq Bank işi üzrə əsas fiqurantlardan biridir, bankın talanmasına yönəlmiş maliyyə maxinasiyalarının birbaşa iştirakçısıdır. Maraqlıdır ki, elə yanvar ayında hüquq-mühafizə orqanları sabiq milli təhlükəsizlik naziri, C.Hacıyevin qudası və biznes şəriki Eldar Mahmudovun ortaqlarından biri Sahib Ağayevi də Qazaxıstanda saxlayaraq, Bakıya gətiriblər.**

Sabiq bankirə bu dəfə də CM-in 179 (mənimsəmə), 193-1 (cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması), 213 (vergidən yayınma), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və başqa maddələri ilə ittihamlar irəli sürülüb.

Əvvəlki ittihamlar üzrə C.Hacıyev ailə üzvləri və özünə yaxın olan başqa şəxslərin adına Beynəlxalq Bankdan milyonlarla kreditin götürülüb mənimsənilməsində suçlanır. Keçmiş deputat D.Xəlilov da C.Hacıyevlə dostluq münasibətlərindən yararlanaraq rəhbərlik etdiyi müəssisələrdəki işçilərinin adına böyük məbləğdə kreditlər götürüb mənimsəməkdə günahlandırılıb və 13 il həbs cəzası alıb. Apelyasiya Məhkəməsi onun cəzasını 3 ay azaldaraq 12 il 9 aya salıb. Barəsindəki ilk məhkəmə hökmü üzrə Cahangir Hacıyevdən 63 milyon 80 min manat tutularaq, Beynəlxalq Banka verilməsi, ona məxsus olan dəyərli qol saatının və sikkə pulların müsadirə olunması barədə hökm çıxarıb...

Cahangir Hacıyevlə bağlı 2-ci cinayət işi araşdırıldığı bir vaxtda Azərbaycan hüquq-mühafizə orqanları onun Britaniyada yaşayan həyat yoldaşı Zamirə Hacıyeva barəsində də araşdırmalara başlayıblar. 2016-cı ildə Azərbaycanın hüquq-mühafizə orqanları ona qarşı mənimsəmə ittihamı irəli sürüb. Məhkəmənin qərarına əsasən barəsində həbsli axtarış elan olunub. Britaniya hüquq-mühafizə orqanlarına Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası ilə bağlı müraciət göndərilib. Bundan sonra bu il noyabrın 2-də Z.Hacıyeva Londonda saxlanılıb. Həbsdəki bankirin 55 yaşlı xanımı Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunub və sonradan 1 milyon 200 min manat girov qarşılığında ev dustaqlığına buraxılıb. Bu sərəncama əsasən, Hacıyeva var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır. Onun Londonda aldıqları və xərclədikləri isə hətta ən varlı ingilis ailələrinin də böyük marağına səbəb olub.

Zamirə Hacıyeva Londonda 11.5 milyon funt sterlinqə (15.13 milyon dollar) ev alıb. Evin hazırkı qiyməti isə 15 milyon funt sterlinq (19.74 milyon dollar) dəyərində qiymətləndirilir. O, son 10 il ərzində "Harrods"da 16 milyon funt (21.04 milyon dollar) xərcləyib. Bundan başqa, idman klubları alıb və s. Z.Hacıyevanın bilinən xərclərinin ümumi məbləği 109 milyon 140 min dollardır. Londonun Vestminster rayonunun Magistrat Məhkəməsi xanım Hacıyevaya bu varidatın mənbəyini açıqlamaq üçün gələn ilin iyun ayına qədər vaxt verib. 2019-cu ilin iyununda Z.Hacıyeva növbəti dəfə məhkəmə qarşısında dayanacaq. Həmin məhkəmənin qərarından asılı olaraq Z.Hacıyeva Azərbaycana göndərilə bilər.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Qarabağla bağlı gələn ilə bir nikbin, bir bədbin proqnoz

## **Qafar Çaxmaqlı:** "Ermənistan əbədi olaraq bu əraziləri öz nəzarətində saxlaya bilməz"

## **Elxan Şahinoğlu:** "İllüziyaya qapılmayaq, Rusiya Paşinyanı torpaqları boşaltmağa məcbur etməyəcək"

**Başa çatmaqda olan 2018-ci ildə Qarabağ müzakirələri xeyli intensiv xarakter alıb. Belarus prezidenti Aleksandr Lukaşenkonun Ermənistanın sabiq rəhbərliyi ilə aparılan məxfi danışıqların bəzi detallarını açması şok effekti yaradıb. Məlum olub ki, Belarus lideri Serj Sərkisyana 5 rayonun azad olunması, əvəzində Rusiya-Belarus qoşunlarının bölgəyə yerləşdirilməsini təklif edibmiş.**

"Sülhə sadiq" olduğunu bəyan edən Ermənistan rəhbərliyinin hətta Azərbaycanı qane etməyə bu sülh planına da razı olmadığı ortaya çıxır. Lakin belə yanaşmalar var ki, Nikol Paşinyan bölgədə təklənən ölkəsini dalandan çıxartmaq, həm də öz hakimiyyətini qorumaqdan ötrü hansısa kompromislərə getməyə vadar olacaq. Azərbaycan prezidenti İlham Əliyevin bu günlərdə Ermənistanın keçmiş rəhbərliklərinin baş verənlərdən dərs çıxartmadığını xatırlatması, eyni zamanda işğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsinin, o torpaqlarda Azərbaycan bayrağının qaldırılmasının kriminal rejimə çox böyük zərbə olduğunu deməsi həm də mövcud iqtidara işarədir. Prezident onu da deyib ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb: "Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik".

Azərbaycan prezidenti öz təcrübəsinə, dövlətinin qüdrətinə və işğalçı tərəfin durumuna işarə edərək İrəvanı konstruktivliyə dəvət edir. Hər halda, 2019-cu ilin martında 5, yaxud 7 rayon məsələsinin masaya qayıdacağı barədə növbəti anonslar diqqət çəkir.

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İtaliyanın Milan şəhərində Dağlıq Qarabağ münaqişəsinə dair keçirilmiş danışıqları "çox faydalı" adlandırmışdı və danışıqların davam etdiriləcəyini demişdi.** "Biz ümid edirik ki, bu ölkənin xalqının mandatına əsasən Ermənistanda yeni bir hökumət formalaşdıqda, gələn il irəliləyiş əldə etməliyik və bölgəyə sülh, sabitlik və tərəqqi gətirmək üçün yaxşı imkan yaratmalıyıq", - deyə XİN başçısı növbəti illə bağlı ümidlərini ifadə edib. Artıq beynəlxalq təşkilatlar, həmçinin Ermənistanı çıxmaq şərtilə, KTMT ölkələri də aprel döyüşlərindən sonra hesab edirlər ki, status-kvo bu şəkildə qala bilməz, mütləq addımlar atılmalıdır. Əgər Ermənistan 2018-ci ildə seçkilərlə özünü qoruya bildisə, 2019-cu ildə belə bir imkanı olmayacaq.

**"Dağlıq Qarabağ problemini həll etmək üçün necə illərdir ki, ATƏT-in Minsk Qrupu məşğul olur. Bu qrupun gördüyü işlərdən razı olsaq da, olmasaq da, fəaliyyətdədir. Yəni nə olacaqsa, Minsk Qrupu çərçivəsində olacaq". Bu fikirləri "Yeni Müsavat"a ermənişünas alim Qafar Çaxmaqlı 2019-cu ildə Qarabağla bağlı mühüm irəliləyişlərin əldə olunacağı barədə səslənən fikirləri şərh edərkən söylədi.**

**Ekspert qeyd etdi ki, Rusiya burada söz sahibidir:** "Rusiya Ermənistandakı prosesləri qəbul etsə də ondan məmnun deyil və Paşinyandan Azərbaycanın bəzi haqlı tələblərini yerinə yetirməsini tələb edə bilər. Vaxtilə Ter-Petrosyan da deyirdi ki, işğal olunmuş ətraf rayonları Azərbaycana təhvil verməklə Ermənistan onun üçün çox dəyərli olan sülhü əldə edə bilər. İndi Paşinyan da bunları etməklə Ermənistanı həmin təhlükədən xilas edə bilər. Amma yenə Minsk Qrupu sözünü deməlidir. Minsk Qrupu isə susur. İndiki halda əski sovet ölkələri fəaldır. Hələ ki Minsk Qrupunun heç bir sədrindən bu məsələ ilə bağlı reaksiya yoxdur".

**Q.Çaxmaqlının sözlərinə görə, məsələnin bizim xeyrimizə dəyişməsi və dünyada belə bir ovqatın mövcudluğu artıq faktdır:** "Ermənistan rayonların qaytarılmasına məcbur edilə bilər. Bu da yəqin ki, bağlı qapılar arasında müzakirə edilib. Lukaşenkonun Ermənistan rəhbərləri ilə bu barədə danışmasını açıqlaması daha başqa məsələlərin açıqlanmasına yol aça bilər. Şübhəsiz ki, bu, torpaqların azad edilməsi günü olacaq. Çünki Ermənistan əbədi olaraq bu əraziləri öz nəzarətində saxlaya bilməz. Dağlıq Qarabağ və digər işğal altındakı ərazilərin Azərbaycana məxsus olduğunu qəbul etdirmişiksə, deməli, bu, böyük bir uğurdur və başqa ölkə başçılarının dilindən səsləndirilməsi müəyyən ümidlər verir. Azərbaycan rəhbərliyinin nikbinliyinin əsası var. Azərbaycan MDB ölkələri birlikləri ilə sıx əməkdaşlıq etmişdir, onlarla ikitərəfli əlaqələri davam etdirmiş və etibarlı dövlət kimi bütün problemlərin həllinə yardımı toxunmuşdur. Hər halda, 2019-cu ildə nəsə olacağına ümid etməliyik. Yenə deyirəm, bu torpaqlar əbədi işğal altında saxlanıla bilməz".



**"Atlas"Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a dedi ki, biz Qarabağ münaqişəsinin həlli ilə bağlı ümidlərimizi hər il o biri ilə keçiririk:** "Ancaq bu, belə olmamalıdır. Ümidlərimizi Ermənistanın yeni hakimiyyəti ilə əlaqələndirmək də doğru deyil. Biz öz yolumuza getməliyik. Ermənistana elə bir rəhbər gəlməyəcək ki, öz xoşu ilə torpaqlarımızı geri qaytarsın. Həmin şəxs məcburiyyət qarşısında torpaqlarımızı geri qaytara bilər. Onu da buna biz məcbur etməliyik. Azərbaycan prezidentinin də dediyi kimi, 20 ildən sonra "Qarabağ klanı" Ermənistanda hakimiyyətdən getdi. Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan torpaqlarımızın işğalında və Xocalı soyqırımında iştirak etməyib".

**E.Şahinoğlu da qeyd etdi ki, Paşinyan keçmiş illərdə eks-prezident Levon Ter-Petrosyanın tərəfdarı olub və Azərbaycanla sülhün vacibliyini anlayıb:** "Ancaq Paşinyan siyasətə daxil olub deputat seçildikdən sonra Qarabağ və Azərbaycanla bağlı siyasətini korrektə etdi və bu təbiidir. Ermənistanda hansı siyasətçi Azərbaycanla sülhə və işğal altındakı torpaqların azad olmasına çağırsa, onun hakimiyyəti laxlayacaq. Ona görə Paşinyan öz istəyi ilə torpaqlarımızı boşaltmayacaq. İllüziyaya qapılmayaq, Rusiya da Paşinyanı torpaqlarımızı boşaltmağa məcbur etməyəcək".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

**Ötən həftə Türkiyə prezidenti ordunun Suriyanın kürdlərin nəzarətində olan Menbic rayonunda əməliyyatlara başlayacağını elan etdi. Artıq yerli media Türkiyə ordu birləşmələrinin Menbic ətrafına toplandığı haqda xəbər yayır.**

# Kürd məsələsi Ankara və Dəməşqi bir araya gətirə bilər

## İraqdakı kürd separatizminə qarşı uğurlu ittifaqın yenisi Suriyada təkrarlana bilər

Dekabrın 12-də Ankarada keçirilən toplantıda prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, Türkiyənin cənubunda (Suriya ərazisi nəzərdə tutulur - K.R.) terror dəhlizi yaratmağa çalışırlar. Türkiyə prezidenti ABŞ hakimiyyətini tənqid edib. Ərdoğan qeyd edib ki, Vaşinqton Suriyadakı YPG-ni terror təşkilatı hesab etmir. Eyni zamanda o, ABŞ hakimiyyətinin Türkiyə ilə deyil, YPG ilə əməkdaşlıq etməsini müttəfiqliyə sığmayan hərəkət adlandırıb.

**Ərdoğan bildirib ki, sonuncu görüşdə ABŞ prezidenti ona Menbicdəki terrorçuları 30 gün ərzində bölgədən çıxaracaqlarını deyib və əlavə edib ki, əgər bu baş verməsə, o zaman Türkiyə özü hərbi əməliyyatlara başlayacaq. Sitat:** "Terrorçulara 20 min yük maşını silah gətirildi. Amma biz deyirik, bizə "belə bir şey olmayıb" deyirlər. Türkiyə köçəri dövləti deyil. Bu mövzuda ABŞ-la fikir ayrılığında olduğumuzu hər kəs bilir".

Ərdoğan ABŞ ordusunun Suriyanın şimalında 30 min YPG terrorçusuna təlim keçdiyini bildirib. O deyib ki, Vaşinqtonun kürdlərlə əlaqəsi hər gün bir qədər də inkişaf edir. Ərdoğan bildirib ki, yaxın günlərdə Fərat çayının şərq sahilində hərbi əməliyyatlar başlayacaq. Bu açıqlama həm də bir mənada Ankaranın Suriya məsələsində artıq ABŞ-la nəinki eyni mövqeni bölüşmədiyini, əksinə, əks qütblərdə olduğunu sübut edir.



Əlbəttə, Türkiyənin mövqeyi aydındır və Ankara kürdlərin Suriyanın şimalında möhkəmlənməsini istəmir. Çünki bu baş verərsə, yeni kürdlər İraqdan sonra ikinci bir kürd muxtariyyətini Suriyada yaradarsa, o zaman birincisi, Türkiyənin sərhədlərində ikinci bir kürd muxtariyyəti yaranacaq, üstəlik, Suriya kürdləri ideoloji olaraq PKK-ya yaxındır və kürd liderlər açıq şəkildə Abdulla Öcalanı özlərinə lider hesab edirlər və bunu gizlətmirlər. Yəni kürdlər muxtariyyət qursalar bu muxtariyyət PKK-ya yaxın bir quruluş olaraq Türkiyə üçün potensial təhlükə mənbəyinə çevriləcək, Ankaranı terror və separatizmlə təhdid edəcək. İkincisi, kürdlərin Suriya-Türkiyə sərhədinə nəzarət etməsi Aralıq dənizinə doğru yeni kürd kordonunun yaradılması layihəsidir. Hansı ki, bu da son nəticədə Türkiyə və Suriyanı qlobal enerji və nəqliyyat yollarından kənarda qoymaq, kürd bölgələri üzərindən yeni layihələr həyata keçirməkdir.

Türkiyə hakimiyyəti isə bu layihənin qarşısını almağa, kürdlərin Suriyada leqal yerli özünüidarə qurumu yaratmasına mane olmağa çalışır. Ya da ən azından bu qurumun Türkiyə ilə sərhədə nəzarət etməməsinə.

Ancaq o da bəllidir ki, hazırda planetin ən güclü ölkələri Suriyada kürdləri dəstəkləyir. ABŞ, Fransa birbaşa hərbi qüvvə göndərməklə kürdləri müdafiə edir. Hazırda Suriyanın kürd bölgələrində 20-dən çox ABŞ hərbi bazası var. Eləcə də 5-dən artıq Fransa hərbi bazası olması məlumdur. Eyni zamanda Böyük Britaniya və Avropa ölkələri də qismən açıq, ya da dolayısı ilə kürdləri dəstəkləyir. Çünki kürdlərin Suriyada gücə çevrilməsi həm də gələcəkdə Türkiyə və Suriya hökumətləri üçün təzyiq vasitəsinə çevrilə bilər.

Yeri gəlmişkən, Türkiyənin Suriyadakı hazırkı müttəfiqi Rusiya da kürd layihəsinə o qədər də soyuq baxmır. Doğrudur, ruslar son iki ildə əvvəl olduğu kimi kürdlərə açıq dəstək vermir. Ancaq Moskva kürdlərə açıq şəkildə təzyiq də etmir. Baxmayaraq ki, kürdlər hazırda Bəşər Əsəd hökuməti ilə müharibə şəraitindədir. Bunu isə bir mənada köhnə əlaqələrlə izah etmək olar. Yəni bir sözlə, hazırda kürd məsələsində Türkiyənin beynəlxalq güclərdən hər hansı dəstək alması real deyil.

Amma bunun əvəzində Türkiyənin güvənə biləcəyi yeganə güc region ölkələridir. Hansılar ki, onları da kürd məsələsi ilə bağlı təhlükə gözləyir. Söhbət "kürd təhlükəsi" ilə üz-üzə olan İraq, Suriya və İrandan gedir. Çünki kürd separatizmi təhlükəsi bu ölkələrin hər biri üçün aktualdır və İraqda artıq kürd muxtariyyəti var. Yeri gəlmişkən, ötən il İraqda bunun təcrübəsi yaşanıb. Region ölkələri Türkiyə, İran və İraq koordinasiyalı şəkildə İraqdakı kürd muxtariyyətinin separatizm fəaliyyətinə qarşı ortaq güc qoyub və nəticədə kürd muxtariyyəti lideri Məsud Bərzaninin müstəqillik iddiaları aradan qaldırılıb.

2017-ci il oktyabrın 15-də İraq mərkəzi hökuməti kürd administrasiyası qüvvələrinin İraq mərkəzi hökumətinə bağlı olan, ancaq İŞİD sonrası kürdlərin nəzarətində qalan bölgələrin geri alınması əməliyyatı başladıb. Əməliyyatın məqsədi kürdlərin nəzarətində olan federal əraziləri geri almaq və bununla da referendumla siyasi iddiasını ortaya qoyan Bərzanini cəzalandırmaq olub.

Türkiyə və İranın siyasi, diplomatik dəstək verdiyi bu əməliyyat yaxşı hazırlanıb və mərkəzi hökumətə aid 50 min nəfərlik polis, antiterror birləşmələri, ordu və "Həşdi Şabi" könüllüləri Tuzhurmatdan və Kərkük vilayətindən başlayaraq şimala doğru zəbt olunmuş İraq ərazilərindən peşmərgələri çıxarıb. Əməliyyat demək olar ki, qansız baş tutub, bəzi bölgələrdə anlaşılmazlıqlardan çıxan toqquşmalarda 25 peşmərgə öldürülüb. İraq ordusunun məlumatına görə, kürdlər tərəfindən zəbt olunmuş torpaqlar artıq peşmərgədən tamamilə təmizlənib.

İndi isə analoji əməliyyatı Suriyada həyata keçirmək olar. Ancaq bunun üçün Türkiyə və Suriya arasında koordinasiya əldə olunmalıdır. Çünki son 7 ildir Türkiyə və Suriya hakimiyyətləri arasında heç bir əlaqə yoxdur və faktiki olaraq düşmən münasibətləri mövcuddur. Ancaq bir neçə il əvvəl də yazdığımız kimi, kürd separatizmi təhlükəsi Ankara və Dəməşqi yaxınlaşdıra bilər.

Çünki Suriyada ABŞ-ın dəstəyi ilə qurulma mərhələsində olan kürd muxtariyyəti Bəşər Əsəd qədər Türkiyə üçün də təhlükəlidir. Üstəlik, Suriya ərazisinə daxil olaraq əməliyyat keçirən Türkiyə qüvvələrinin oradan çıxacağı halda, kürdlərin tutduqları ərazilərdə yeni yarımüstəqil bir muxtariyyət qurub sahib olduqları silahlı güc vasitəsilə region üçün separatizm və terror qaynağı olması riski daha böyükdür. Bu mənada indi Suriya kürdləri mövzusu təkcə İran və Türkiyəni deyil, həm də Suriya və Türkiyəni yaxınlaşdırır. Qalır bunu reallaşdırmaq. Yeri gəlmişkən, ötən gün Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ankara Əsədlə yenidən işləyə bilər. Bazar günü isə Sudanın qalmaqallı lideri Ömər əl-Bəşir gözlənilmədən Dəməşqə səfər edib və Bəşər Əsədlə görüşüb. Bazar ertəsi günü İranın xarici işlər nazirinin müavini Cabir Ənsari də Dəməşqə səfər edərək Bəşər Əsədlə görüşüb. Bu görüş və səfərlərin nə qədər bir-biri ilə bağlı olduğunu indidən demək çətindir, ancaq görünən odur ki, Ankara və Dəməşqi kürd təhlükəsi bir araya gətirə bilər. Bu indi hər iki tərəf üçün ən optimal yoldur. Əlbəttə, hər iki (əslində daha çox - K.R.) tərəf bunun fərqindədir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# BNA dayanma-durma qaydalarını pozan sürücülərə xəbərdarlıq etdi

**Parklanma yerlərində, habelə dayanma və durmanın qadağan edildiyi yerlərdə inzibati xəta törədilməsinə görə elektron protokolların tərtib edilməsi kameralar vasitəsilə də həyata keçirilir.**



Bu barədə "Report"a Bakı Nəqliyyat Agentliyindən (BNA) bildirilib.

Məlumata görə, mərhələ ilə bu tədbirlər daha mütəşəkkil və təkmilləşdirilmiş qaydada təşkil ediləcək.

BNA həmçinin xatırladıb ki, artıq bir müddətdir ki, paytaxtın inzibati ərazisində dayanma və durma qaydalarını pozan sürücülərə qarşı Bakı Nəqliyyat Agentliyinin əməkdaşları tərəfindən inzibati tənbeh tədbirləri görülür: "İnzibati tədbirlərlə yanaşı, BNA tərəfindən sürücüləri yol hərəkəti qaydalarına, o cümlədən dayanma və durma qaydalarına əməl etməyə sövq edən maarifləndirmə işləri də davam etdirilir. Bu çərçivədə paytaxtın müxtəlif ərazilərində, xüsusən də dayanma və durma qaydalarının pozulması hallarının daha çox rast gəlindiyi küçə və prospektlərdə maarifləndirmə xarakterli lövhələr vurulub.

Bir daha avtomobil sahibləri və sürücülərin nəzərinə çatdırmaq istərdik ki, dayanma və durma qaydalarına ciddi şəkildə əməl edilməlidir. Avtobus dayanacağında, səkilərdə və yolların hərəkət hissəsində, ikinci cərgədə, yolların kəsişən hissələrində, piyada xətlərinin üzərində və təyin olunmayan digər ərazilərdə nəqliyyat vasitələrinin park edilməsi "Yol hərəkəti haqqında" Qanunun tələblərinin kobud şəkildə pozulmasıdır. Bu, inzibati məsuliyyət yaradır. Bu kimi qayda pozan sürücülərə qarşı Bakı Nəqliyyat Agentliyinin əməkdaşları tərəfindən inzibati tənbeh tədbirləri həyata keçirilir. Hər kəs qanunun bu tələblərini müzakirə etmədən birmənalı yerinə yetirməyə borcludur".

# DYP-dən xəbərdarlıq - təhlükəli yük daşıyanlar sərt cəzalanacaq

## "Dəmir boru "Hyundai" markalı avtomobilin qabaq alın şüşəsindən girərək sürücünün həyatına son qoyub"

**Son günlər minik avtomobilləri ilə yükdaşıma fəaliyyəti göstərən və istismara yararsız nəqliyyat vasitələrini idarə edən sürücülər tərəfindən törədilən yol nəqliyyat hadisələri və digər xoşagəlməz hallar çoxalıb.**

Bununla əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi bəzi məqamları həmin nəqliyyat vasitələrini idarə edən sürücülərin və digər hərəkət iştirakçılarının diqqətinə çatdırır. İdarədən avtosfer.az-a verilən məlumata görə, son bir həftə ərzində bu cür nəqliyyat vasitələrini idarə edən onlarla sürücü barəsində inzibati protokol tərtib olunub. Bir neçə nəqliyyat vasitəsi istismara yararsız olduğu üçün cərimə meydançasına aparılıb. DYP xatırladır ki, iki gün öncə Salyanda üzərində dəmir qırıntılar daşınan "Opel" markalı avtomobillə "Hyundai" markalı digər nəqliyyat vasitəsi toqquşub. Nəticədə "Opel"in üzərində olan dəmir boru "Hyundai" markalı avtomobilin qabaq alın şüşəsindən girərək sürücünün həyatına son qoyub. Həmin hadisədən sonra bu cür nəqliyyat vasitələrinə qarşı sərt tədbirlərin görülməsi barədə göstəriş verilib. Bu gün (17 dekabr-red.) Nəsimi rayonu ərazisində "QAZ-31" markalı avtomobil 12 metr uzunluqda armatur daşıdığı üçün yol patrul xidməti əməkdaşları tərəfindən saxlanılıb. Onun sərxoş vəziyyətdə olduğu şübhə doğurduğundan müayinəyə dəvət edilib və sənədləri tələb olunub. Lakin sürücü bunlardan imtina edərək özünü və yol polisi əməkdaşını yandırmaqla hədələyib. Sonra isə benzin tökərək həm özünə, həm də yol polisi əməkdaşına xəsarət yetirib. Digər bu kimi xoşagəlməz hallar uzun müddətdir baş verdiyindən yol polisi yol hərəkət qaydalarına əməl etməyi tövsiyə edir. Qeyd olunur ki, bu cür nəqliyyat vasitələri istismara yararsız vəziyyətdə olduğundan və heç bir təhlükəsizlik elementi mövcud olmadığından yol nəqliyyat hadisələrinə səbəb olur. Lakin həmin nəqliyyat vasitələri ümumi istifadə olunan yollarda deyil, ara və məhəllədaxili yollarda istifadə edildiyindən, yol polisi əməkdaşları onları tez-tez aşkar edə bilmir. Yalnız ümumi istifadədə olan yollara çıxdıqda onları saxlayıb, sürücüləri məsuliyyətə cəlb etmək mümkündür. Yol polisinin apardığı araşdırmalar nəticəsində məlum olub ki, bu cür nəqliyyat vasitələrini idarə edənlərin əksəriyyətinin sürücülük vəsiqəsi yoxdur. Bəziləri hətta müvafiq sənədlər belə olmadan bu cür nəqliyyat vasitələrini idarə edir. Bəzən belə avtomobilləri 5-6 nəfər ayrı-ayrı vaxtda idarə edir. Yəni onlar buna, sadəcə, yükdaşıma vasitəsi kimi baxırlar. Nəqliyyat vasitəsi kimi həmin avtomobili saz vəziyyətdə saxlamırlar, işıq cihazları nasaz vəziyyətdə olur, əyləc sistemi işləmir. Bu da yol hərəkəti qaydalarının kobud şəkildə pozulması deməkdir. Yol polisi bu cür avtomobilləri idarə edən şəxslərin diqqətinə çatdırır ki, onlara qarşı nəzarət gücləndirilib. Bundan sonra yükdaşıma qaydalarını pozduqlarına görə onların barəsində çox sərt tədbirlər görüləcək. İstismara yararsız olan nəqliyyat vasitələrinin cərimə meydançasına aparılması təmin ediləcək və digər müvafiq addımlar atılacaq. Dövlət Yol Polisi onu da qeyd edir ki, bu cür avtomobilləri idarə edən bəzi sürücülər Yol Patrul Xidməti əməkdaşları tərəfindən saxlanılarkən müxtəlif təzyiq üsullarına əl atırlar, özlərinə xəsarət yetirəcəklərini bildirirlər, sosial vəziyyətlərini önə çəkməklə və digər vasitələrdən istifadə edərək məsuliyyətdən yayınmağa çalışırlar. Lakin Dövlət Yol Polisi əməkdaşları tərəfindən aparılan araşdırmalar zamanı məlum olub ki, bu cür nəqliyyat vasitələrini idarə edən şəxslərin əksəriyyətinin normal yaşayış şəraiti, imkanı var, saz vəziyyətdə olan digər avtomobilə sahibdir. Ancaq ucuz başa gəlsin deyə istismara yararsız olan nəqliyyat vasitələrini 300-500 manata əldə edib, öz bizneslərini qururlar. Bu isə yol hərəkəti təhlükəsizliyi üçün ciddi əngəldir. Bunu aradan qaldırmaq hər bir hərəkət iştirakçısının borcudur. Yol polisi bir daha xəbərdarlıq edir ki, belə nəqliyyat vasitələri aşkar edildikdə heç bir istisna olmadan barələrində ciddi tədbirlər görüləcək. Baş Dövlət Yol Polisi İdarəsi bu cür nasaz nəqliyyat vasitələrinin sürücülərinə xəbərdarlıq edir ki, nəqliyyat vasitələrini saz vəziyyətə gətirsinlər. Nasaz nəqliyyat vasitəsi idarə etməsinlər. Ümumiyyətlə, dəmirlərin və yüklərin daşınması yalnız yük avtomobilləri vasitəsilə həyata keçirilməlidir və avtomobilin yük yerində daşınmalıdır. Nəqliyyat vasitəsinin damında dəmir parçalarının daşınması qadağandır. Odur ki, sürücülər bu qayda pozuntularına yol verməsinlər.






## Qar yağacaq, yollar buz bağlayacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraiti ilə bağlı xəbərdarlıq edib.**

Nazirlikdən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dekabrın 18-dən dekabrın 21-i gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir.

Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Dekabrın 19-da gündüz yağışda fasilə olacaq.

Azərbaycanın rayonlarında dekabrın 19-u axşam bəzi şərq rayonlarında, dekabrın 20-si axşam, dekabrın 21-də isə ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, çaylarda sululuğun artacağı, Lənkəran-Astara zonasının bəzi çaylarından isə qısamüddətli daşqın keçəcəyi ehtimalı var. Dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimal olunur.

## Bakıda orta məktəbin qarşısında 43 yaşlı kişi ürəyindən bıçaqlandı

**Bakıda bıçaqlanma hadisəsi baş verib.**

"Trend"in məlumatına görə, hadisə Xəzər rayonu, Buzovna qəsəbəsində 26 saylı orta məktəbin qarşısında baş verib.

Qəsəbə sakini, 2000-ci il təvəllüdlü Məmmədli Qafar Ramil oğlu həmkəndlisi, 1975-ci il təvəllüdlü Cabbarov Tərlan Şükür oğlu ilə mübahisə edib.

Mübahisə davaya çevrilib və nəticədə Q.Məmmədli T.Cabbarovu sol döş qəfəsindən bıçaqlayıb.

Yaralı 3 saylı şəhər Klinik Xəstəxanasına çatdırılıb.

Faktla bağlı Xəzər Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlayıb.

## "Nar" mətbuat nümayəndələrini bir araya topladı

**"Nar" qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə mətbuat nümayəndələrini bir araya toplayıb və onlar üçün növbəti dəfə əyləncəli bilik yarışması təşkil edib. Tədbirdə 55-dən çox media orqanını təmsil edən 100-ə qədər jurnalist iştirak edib. Yarışmada ümumi biliklərlə yanaşı, milli və dünya mədəniyyətinə, tarixinə aid müxtəlif suallar təqdim olunub.**




"Azerfon" MMC-nin İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov media nümayəndələrini qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib və bildirib ki, "Nar" mediaya yönəlmiş layihələrini növbəti il də reallaşdıracaq.

2 saatdan çox davam edən bilik yarışmasında 18 komanda iştirak edib. "Sophianın Azərbaycandakı dostları" komandası 1-ci, "Yeni Müsavat" komandası 2-ci, "Komandos" komandası isə 3-cü yeri tutublar. Qalib komandalar "Nar"-dan xüsusi hədiyyələr qazanıblar. Bundan başqa, tədbir zamanı xüsusi əyləncəli müsabiqələr keçirilib və qaliblərə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif səpkili bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir, maarifl ənməni təşviq edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## "Bakcell" karyera qurmaqda tələbələrə dəstək göstərir

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti Azərbaycan Texniki Universitetinin tələbələri üçün təşkil olunmuş karyera sərgisində iştirak edib.**



Azərbaycan Texniki Universitetinin Karyera Mərkəzi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilmiş karyera sərgisində 70-ə yaxın şirkət və müəssisə iştirak edib. Sərgi tələbələrə məşğulluq, iş, təcrübə imkanları təklif etməklə yanaşı, müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradıb.

Tədbirdə iştirak edən tələbələrə "Bakcell"in satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Şirkət nümayəndələri işaxtaranlar və potensial namizədlərlə müsahibələr keçirib.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən "Bakcell" şirkəti Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənc mütəxəssislərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət bir sıra iri karyera sərgisində iştirakla yanaşı özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib.

"Bakcell" şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə, Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

YENİ MÜSAVAT
N 271 (7160) 18 dekabr 2018

# Yeni ildə maşınlar bahalaşacaq

## Ekspertlər avtomobil idxalına aksizlərin artırılmasını dəyərləndirdilər

**Yeni il avtomobil həvəskarları üçün heç də ürəkaçan başlamayacaq. Belə ki, Vergilər Məcəlləsinə edilən dəyişikliklərə əsasən 2019-cu il yanvarın 1-dən Azərbaycana gətirilən avtomobillərə tətbiq olunan aksiz vergisi kəskin şəkildə artırılır.**

Dəyişikliyə əsasən idxal olunan avtomobillərin mühərrikinin həcmi 2000 kubsantimetrədək olduqda mühərrikin həcminin hər kubsantimetrinə görə aksiz vergisi 0.20 manatdan 0.30 manatadək yüksəldilib. Yeni ildən mühərrikinin gücü 2 litr olan avtomobil üçün aksiz vergisi 400 manatdan 600 manata, 2,2 litr olan 1000 manatdan 1600 manata, 2,5 litr olan 1900 manatdan 3100 manata, 3 litr olan 3400 manatdan 5600 manata, 3,5 litr olan 7400 manatdan 12100 manata, 4 litr olan 11 400 manatdan 18 600 manata, 4,5 litr olan 21 400 manatdan 36 100 manata, 5 litr olan 31 400 manatdan 53 600 manata, 5,5 litr olan 51 400 manatdan 88 600 manata, 5,7 litr olan 59 400 manatdan 102 600 manata qaldırılır.

Bəzi mütəxəssislər hesab edirlər ki, avtomobil idxalına aksizlərin artırılması Avropada dizel yanacağı ilə işləyən avtomobillərin qadağan olunması ilə bağlıdır. Belə ki, 2019-cu il yanvar ayından Avropada Avro4 və Avro5 standartlı dizel mühərriki ilə işləyən avtomobillərin istismarı qadağan ediləcək. Bu isə həmin avtomobillərin kütləvi şəkildə Azərbaycana idxalına gətirib çıxaracaq. Amma maraqlıdır ki, artımlar əsasən yeni avtomobillərə tətbiq olunur.



**İqtisadçı-ekspert Vüqar Bayramov bildirir ki, dəyişikliklərin gələn ildən qüvvəyə minəcəyinə baxmayaraq, artıq avtomobil bazarında qiymət artımları müşahidə edilməkdədir:** "Mühərrik gücü böyük olan avtomobillərin idxalına tətbiq edilən aksiz vergilərinin artırılmasını fiskal baxımdan əsaslandırmaq mümkün olsa da, kiçik mühərrikli avtomobillərin idxalındakı vergilərin yüksəldilməsi izahedilən deyil. Avtomobil idxal aksiz vergilərinin mütəmadi olaraq artırılması ölkədə avtomobil parkının köhnəlməsinə səbəb olur. Bu baxımdan, növbəti illər bu faktor ekoloji, tıxac baxımdan problemlər yarada bilər. Buna görə də mühərrikin həcmi 2000 kubsantimetrədək olan avtomobillərin idxalına tətbiq edilən aksiz vergilərin artırılmasına ehtiyac yox idi. Eyni zamanda gücü 3000 kubsantimetrədək olan avtomobillərdə vergi artımının da cüzi olması məqsədəuyğun idi".

**İqtisadçı-ekspert Pərviz Heydərov avtomobillər üçün aksizlərin artırılmasının bir neçə mənfi nəticələri olacağı qənaətindədir:** "Gələn il ölkəyə avtomobil idxalına tədbiq edilən aksiz vergisi dərəcələrinin artırılması tamamilə absurd bir məqsəd daşıyır. Bu tədbir hərtərəfli olaraq ölkəyə ziyandır. Birincisi, ölkəyə təzə avtomobillər gətirilməsi daha da azalacaq. İkincisi, dövlət büdcəsinə bundan gəlirlər minimuma enəcək. Üçüncüsü, ölkədə əhali arasında ayrı-seçkilik daha da dərinləşəcək. Dördüncüsü, ölkədə bu qədər gözəl və rahat avtomobil yollarının salınmasının nə əhəmiyyət daşıdığı məlum olmayacaq. Beşincisi, ölkə ucuz və keyfiyyətsiz avtomobillərin məskəninə çevriləcək. Altıncısı, bu addımla yerli avtomobil istehsalını artırmaq istəyi nəinki baş tutacaq, əksinə, daha da qeyri-stimul xarakter daşıyacaq".

**Ekspert bildirir ki, bu addımın məqsədi aydın deyil:** "Hələ də bizə aydın deyil ki, yerli istehsalı stimullaşdırmaq və yaxud daxili bazarı qorumaq, o cümlədən də dövlət büdcəsinə gəliri artırmaq üçün ölkəyə bahalı məhsulların idxalını məhdudlaşdırma siyasəti yürütmürlər, əksinə, real rəqabət şəraiti yaratmaq məqsədilə liberallaşdırırlar. Çünki bu özü əhalinin imkanlı təbəqəsinin gəlirlərini həm də üzə çıxartmaq üsullarından biri xarakter daşıyır"...

**Daha bir iqtisadçı Natiq Cəfərli isə bildirir ki, avtomobil idxalına yüksək vergilərin təyin olunması bir çox dünya ölkələrində tətbiq olunan praktikadır:** "Bunu elə ölkələr edirlər ki, onların özlərinin yerli avtomobil istehsalı var. Öz daxili bazarlarını, istehsalçılarını qorumaq üçün bu addımı atırlar. Azərbaycanda demək olar ki, daxili istehsal yoxdur. Bir neçə dəfə cəhd ediblər avtomobil istehsalı üçün, hər dəfə də uğursuz olub. Ona görə də bu addımın yeganə məqsədi kimi büdcə gəlirlərinin artırılması çıxış edir. Büdcə gəlirlərinin bir xeyli hissəsini avtomobil idxalından tutulan vergi və rüsumlar təşkil edir. Növbəti il üçün bunu daha da artırmaq istəyirlər".

**Ekspertin sözlərinə görə, aksizləri artırmaqla yanaşı, ölkənin avtomobil parkının yenilənməsi, ekoloji tələblərin qorunması məqsədi daşıyan addımların da atılması zəruri idi:** "Məsələn, elektriklə işləyən, hibridlə işləyən avtomobillərin idxalına sıfır gömrük rüsumu, sıfır aksiz tətbiq olunsaydı, bunun məntiqini anlamaq olardı ki, ekoloji baxımdan, tıxac probleminin həlli baxımından, yeni texnologiyaların Azərbaycana gəlişinin təşviqi baxımından atılır bu addımlar. Bir çox ölkələr bunu edirlər: elektriklə, alternativ enerji ilə işləyən avtomobillərin idxalı vergi və rüsumlardan azad olunur. Azərbaycanda isə ancaq aksizlər artırılır. Və bunun nəyə xidmət etdiyi, strateji olaraq hədəfin nə olduğu aydın görünmür".

**N.Cəfərli qeyd edir ki, bu addım ölkədə avtomobillərin bahalaşmasına, ucuz və keyfiyyətsiz, işlənmiş avtomobil idxalının artmasına gətirib çıxaracaq:** "Daha az vergi ödəmək üçün daha ucuz, işlənmiş avtomobillər gətiriləcək. Bu isə həm də ekoloji baxımdan arzuolunmayan bir prosesdir. Digər tərəfdən, avtomobil bazarında durğunluq yaranacaq. Çünki bahalaşma olacaq, kreditləşmənin getdikcə azaldığı bir zamanda qiymətin qalxması alıcılıq qabiliyyətini aşağı salacaq. Bu isə idxalın azalması, büdcəyə gözləniləndən daha az vəsaitin daxil olmasına gətirib çıxara bilər. Yəni hökumətin gözlədiyinin tam əksinə bir effekti ola bilər".

Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin məlumatına əsasən bu ilin yanvar-noyabr aylarında Azərbaycana 22 714 ədəd avtomobil idxal olunub. Bunun 20 429-u əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələridir. Ötən ilin eyni dövründə ümumi idxal cəmi 9 828 ədəd avtomobil olub ki, bunun da 8 577-si əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləridir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Qanunsuz ov edənlərə qarşı sərt cəzalar

## Ovu qadağan edilən heyvanlar və tətbiq olunan cərimələr

**6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən Qəbələ rayonunda keçirilən reyd zamanı Qəbələ Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin Vəndam Meşəbəyliyinin 4 saylı dolayında atəş səsləri eşidilib.**

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilib.

Xəbərdə qeyd edilir ki, 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin dolaya yaxınlaşan əməkdaşları bir baş dişi maralın vurulduğunu qeydə alıblar. Brakonyerlərin şəxsiyyətlərinin müəyyən edilərək, məsuliyyətə cəlb olunmaları üçün Qəbələ Rayon Polis Şöbəsinə müraciət edilib.

Adı Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşən maralı ovlayan şəxslərin kimliyinin müəyyən edilməsi istiqamətində təhqiqat aparılır.

Azərbaycanda hazırda ov mövsümüdür. Bu baxımdan müəyyən olunmuş yerlərdə, ovçuluq üçün icazəsi olan şəxslər, icazə verilmiş heyvanları vura bilərlər. Cümlənin mürəkkəbliyindən də göründüyü kimi, ölkə ərazisində ov etmək asan məsələ deyil. İnsanlar bəzən bilərəkdən, bəzən də məlumatsızlıqdan ovlanması qadağan edilmiş heyvanları, quşları vurub cərimələnə bilərlər. Bu səbəbdən də "Yeni Müsavat" təkrarən ov mövsümü mövzusuna toxunub, ovlanması qadağan edilən heyvanların siyahısını təqdim edir.



Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayaraq bildirib ki, bu mövsümdə çöl donuzu (qaban), dovşan, cüllüt, qaz, ördək və qaşqaldaq ovuna icazə verilib. Ov yerlərinə gəlincə isə Lənkəran, Astara, Lerik, Qax, Cəlilabad, Zaqatala, İmişli, Qusar, Xaçmaz, Neftçala, Yardımlı, Şəki və İsmayıllı rayonlarının müvafiq ov sahələrində və ovçuluq təsərrüfatlarında ovlanmaya icazə var.

Ağdam, Göygöl, Goranboy, Daşkəsən, Gədəbəy, Tərtər və digər sərhədyanı və ya cəbhə zonasına yaxın inzibati rayonların ərazilərində, Xəzər dənizinin adalarında, yaşıl zonalarda, şəhərlərin və kurortların ətrafında yerləşən ən azı 1,5 kilometrə qədər sahələrdə, xüsusi mühafizə olunan ərazilərin daxilində və sanitariya-mühafizə zonalarında ov qadağan edilib.

Azərbaycanda canavar, maral, ceyran, şahinkimilər, bəzgək, dovdaq və digər nadir quş növlərinin ovlanması qadağandır. Bunları ovlayanları konkret cərimələr gözləyir. Belə ki, vəhşi heyvanların qanunsuz ovlanması üçün ödəmələrin miqdarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr"ə əsasən tənzimlənir. Cəzalara gəlincə isə bir baş şahin quşu üçün 1100 manat, bir baş bəzgək üçün 330 və dovdaq üçün isə 550 manat cərimə müəyyən edilib. Eyni zamanda dövlət təbiət qoruqlarının ərazilərində və milli parkların xüsusi mühafizəsinin hüquqi rejimi tətbiq edilən zonalarında Azərbaycan Respublikasının "Qırmızı kitab"ına və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahı"sına düşmüş vəhşi heyvan növləri qanunsuz olaraq məhv və ya əldə edilərsə, təbiətə dəymiş ziyana görə ödəmələr hər bir növ üçün vəhşi heyvan növü üzrə təyin olunmuş məbləğ üçqat ölçüdə, yəni şahin quşu üçün 3300 manat, bir baş bəzgək üçün 990 və dovdaq üçün isə 1650 manat məbləğində hesablanır.

Məsələ ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsində də müvafiq maddələr var. Belə ki, Cinayət Məcəlləsinin 258-ci maddəsinə əsasən, lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş vaxtda, qadağan edilmiş alət və üsullarla ov etmə xeyli miqdarda (400 manatdan 1000 manatadək) ziyan vurduqda iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz iyirmi saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

Eyni əməllər külli miqdarda (1000 manatdan artıq olan məbləğ) ziyan vurulmaqla, partlayıcı maddələrdən və ya quşların və heyvanların kütləvi məhvinə səbəb olan başqa üsullardan istifadə etməklə, ovlanması qadağan edilmiş quşlara və heyvanlara qarşı qoruqların ərazisində törədildikdə isə üç min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 271 (7160) 18 dekabr 2018



## Qız anası olmaq istəyirsinizsə... hirslənin

Oğlan anası olmaq istəyən qadınların əsəbləri normada olmalıdır. İngiltərənin Oksford Universiteti alimlərinin dediklərinə görə, onların apardıqları araşdırmanın nəticələri belədir.

İngilis alimləri ana olmaq istəyən 300 qadını müşahidə ediblər. Məlum olub ki, döllənmə zamanı xroniki stress vəziyyətində olan qadınların qız anası olmaq şansları daha çoxdur. Eksperimentə cəlb edilmiş qadınların orqanizmlərində böyrəküstü vəzin ifraz etdiyi və xroniki stressin göstəricisi olan kartizol ilə beta-amilaz fermenti kimi hormonların göstəriciləri ölçülüb.

Beta-amilazanın artması insan orqanizmində adrenalinin çoxalmasına dəlalət edir ki, bu da emosional durumlarda baş verir. Eksperiment əsnasında qadınlar 58 oğlan və 78 qızı dünyaya gətiriblər. Orqanizmlərində kortizolun səviyyəsi yüksək olan qadınlarda qızlar daha çox doğulub. Ümumiyyətlə, belə qadınların qız anası olma şansları 75 faiz çoxdur.

# Belə xəsislik görülmədi

Londonun sakini olan bir qadının başına əcaib hadisə gəlib. Bir nəfər kişi ilə ilk dəfə görüşə çıxan 38 yaşlı Lusi Braun ikinci görüş təklifini rədd etdiyi üçün ondan birinci görüşdə çəkilən xərci geri qaytarmaq tələb edilib. Bu barədə lenta.ru saytı "Metro"ya istinadən yazıb. Cütlük şəhərin tanışlıq üçün fəaliyyət göstərən publarından birində görüşüb. İxtisasca dizayner olan qadın birinci görüşdən sonra ikinci dəfə görüşməkdən imtina edib. Buna cavab olaraq britaniyalı kişi ona dürüstlüyünə görə təşəkkür edib və birinci görüş zamanı pubda xərclədiyi 42.8 funt sterlinqi (təxminən



53 dollar) qaytarmağı xahiş edib. Eyni zamanda kişi bildirib ki, maddi çətinliklər yaşayır və məhz Braunla görüşə bilmək üçün puluna qənaət edib. Mesajının sonunda isə britaniyalı kişi öz bank hesabının nömrəsini yazaraq, pulun ora köçürülməsini xahiş edib. Xəbərdə həmçinin qeyd olunub ki, Braun həmin məbləği geri qaytarıb.

# Tələbələr 10 il əvvəllə müqayisədə daha az ünsiyyətə girir



Miçiqan Universiteti tələbələr arasında keçirdiyi sorğunun nəticələrini açıqlayıb. Məlum olub ki, müasir tələbələr 10 il əvvəlkilərlə müqayisədə 40 faiz daha az ünsiyyətə meyllidirlər. Daha dəqiq desək, onlar qarşılarındakı insana daha az qulaq asıb, daha çox danışırlar. Bu mövzu ilə bağlı kitab yazan Darlene Mininni adlı müəllif yaranmış bu vəziyyəti belə izah edir: "Əgər bir insan daim danışır, digəri isə sadəcə onu dinləyirsə, bu, heç də sağlam ünsiyyət sayılmır. Dinləyən tərəf əvvəl-axır partlamağa hazır vəziyyətə gələcək. Təbii ki, bəzən sizin üçün çox vacib olan bir xəbəri nəfəsinizi dərmədən dostlarınızla paylaşdığınız anlar ola bilər. Bu, normaldır. Amma dediyimiz hal adət halını alırsa, o zaman ciddi problemdən danışmaq olar".

Çox danışan insan öz ətrafını danışığı ilə nəzarət altına almaq istəyir. O, danışmadığı vaxt nəzarətin, idarənin əlindən alındığını düşünür və özünü təhlükə altında, qorumasız hiss edir. Əslində bu, bir özünə güvən problemidir. Bəziləri də çox danışaraq özlərini sübut etməyə çalışır.

## Qoroskop




**QOÇ** - Belə bir gündə evdə oturmağa lüzum yoxdur. Əksinə, aktivliyinizi artırmalısınız. Ulduzlar bəyan edir ki, bəxtinizdə dekabr ayının ən uğurlu təqvimlərindən biri durub.

**BUĞA** - Özünüzə daha çox etibar edin. Çünki ətrafınızda olanlar iştirakçısı olduğunuz situasiyaları sizin qədər təhlil edə bilmir. Nahardan sonra Ay bürcünüzdə olduğundan pul sövdələşmələrindən uzaq olun.

**ƏKİZLƏR** - Ümumi sıxıntılarınız olsa da bu, yalnız nahara qədər davam edəcək. Sonrakı müddətdə bəzi planları həyata keçirə biləcəksiniz. Axşama yaxın vacib şəxslərlə görüşəcəyiniz mümkündür.

**XƏRÇƏNG** - İlin sonuna qədər görəcəyiniz işləri indidən götür-qoy edin. Ulduzlar səfərə çıxmağınızı labüd saymır. Amma nahardan sonra xoş təsadüflə rastlaşacaqsınız. Kiminsə əleyhinə danışmayın.

**ŞİR** - Ailə-sevgi münasibətlərində qarşınıza problemlər çıxa bilər. Amma belə anlaşılmazlıqları dəf etmək üçün təmkin göstərməyiniz kifayətdir. Günün ikinci yarısını istirahətə həsr edin.

**QIZ** - Bu təravətli günü qeyri-işgüzar görüşlərə həsr etməyiniz məsləhətdir. Soyuq münasibətdə olduğunuz yaxınlarınızla davranışlarınızı mülayimləşdirməyə çalışın. Uzaq yola çıxmayın.

**TƏRƏZİ** - Bu təqvimi romantik bir günə çevirmək öz əlinizdədir. Çünki əyləncələrə və səfərə də gedə, əməli fəaliyyətlə də məşğul ola bilərsiniz. Qısası, bu gün hər şey özünüzdən asılı olacaq.

**ƏQRƏB** - Daxili tərəddüdlərinizi dəf etmək üçün mütləq ətrafınızda təcrübəli adamlar olmalıdır. Saat 15-ə qədər uğurlu məqamlar yaşasanız da, sonrakı ərəfədə mübahisələr mümkündür.

**OXATAN** - Maliyyə problemlərinə görə sıxıntı çəkməyin. Ən azı ona görə ki, bu gündən etibarən şəxsi büdcənizdə kifayət qədər artım olacaq. Özünüzə qapılmaqdansa, əzmkarlığınızı artırın.

**OĞLAQ** - O qədər də uğurlu vaxt deyil. Öhdəliklərinizin reallaşması istiqamətində yorulacağınız gözlənilir. Bir sözlə, bu təqvimdə yalnız aktiv fəaliyyətlə məşğul olmalısınız. Qidanıza fikir verin.

**SUTÖKƏN** - Yüksək əhval-ruhiyyədən uzaq olmayın. İş haqqında nə qədər düşünmək olar? Ruhdan düşməyə də lüzum yoxdur. Çünki qarşıda sizi uğurlu məqamlar gözləyir. Uzaq səfərə çıxmayın.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimin sizə düşəcəyindən, o cümlədən perspektivli görüşlərdə iştirakınızdan xəbər verir. Bu səbəbdən də boş dayanmağa dəyməz. Axşama yaxın sürprizlə qarşılaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Corab iylədi, xəstəxanalıq oldu



Çində bir kişi çirkli corab iyləmək vərdişinə görə ağciyər göbələyi infeksiyasına yoluxub. Hadisə Çjançjou şəhərində baş verib. Adının gizlin qalmasını istəyən çinlini təcili yardım maşını ilə aparanda az qala boğulurmuş. Həkimlər pasiyenti təcili rentgen aparatına salıblar və məlum olub ki, o, ciddi şəkildə ağciyər infeksiyasından əziyyət çəkir. İndi kişi stasionar müalicə kursu keçməlidir.

Həkimlərin aydınlaşdırmasına görə, problem onun hər gün corab iyləmək vərdişinə görə baş verib. Kişi hər axşam işdən qayıdandan sonra paltarını dəyişəndə corablarını iyləyirmiş. Kişi bilməyib ki, ayağında göbələk xəstəliyi var. Göbələk virusları onun ağciyərlərinə düşüb və infeksiyanın yayılmasına səbəb olub. Dekabrın əvvəlində isə xəbər verilmişdi ki, burnunu krantdan gələn su ilə yuyan amerikalının beyninə virus girib. Həkimlər onu xilas edə bilməyiblər. Neyrocərrah qeyd edib ki, parazit onun beyninin bir hissəsini tamamən məhv edib və onu xilas etmək mümkünsüz olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.